QARABAĞ AZƏRBAYCANDIR!

# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



“SƏS” qəzeti mənim üçün ən əziz qəzetdir

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 060 (6260) 8 aprel 2021-ci il. Qiyməti 40 qəpik

“Əlincə” Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.


# Prezident İlham Əliyev yol tikintisinə 13,6 milyon manat ayırıb



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 7-də “Ağcabədi rayonunun Mingəçevir-Stansiya Mingəçevir-Bəhrəmtəpə (109 km)-Avşar-Salmanbəyli-Aşağı Avşar-Xocavənd avtomobil yolunun tikintisi ilə bağlı əlavə tədbirlər haqqında” Sərəncam imzalayıb.

AZƏRTAC xəbər verir ki, Sərəncama əsasən, 14 min nəfər əhalinin yaşadığı 4 yaşayış məntəqəsini birləşdirən Mingəçevir-Stansiya Mingəçevir-Bəhrəmtəpə (109 km)-Avşar-Salmanbəyli-Aşağı Avşar-Xocavənd avtomobil yolunun tikintisinin başa çatdırılması məqsədilə “Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü”nün 1.1.9-cu yarımbəndində göstərilmiş 13,6 milyon manat Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılıb.

## Paşinyan Putindən nə istədi?



Ermənistanın baş naziri Nikol Paşinyan Rusiya prezidenti Vladimir Putinlə görüşündə söhbətə hərbi əsirlərlə başlayıb, sonra isə İrəvanda yazdıqlarını bir-bir Kremlin sahibindən xahiş edib. SİA xəbər verir ki, onun istədiyi ilk şey Ermənistanda yeni atom elektrik stansiyası...

Bax 8

## Hulusi Akar: Birlik və bərabərliyimiz Qarabağ ətrafında daha da möhkəmləndi



“Azərbaycanlı qardaşlarımızla əməkdaşlığımızı davam etdiririk”. Bunu Türkiyənin milli müdafiə naziri Hulusi Akar deyib. O bildirib ki, Azərbaycanın Qarabağda qazandığı 44 günlük Zəfərinin əhəmiyyəti...

Bax 4

## Minsk qrupu həmsədrlərinin susan vicdanları...




Bax 7

## Etirazçı erməni qadınlar tutulub polisə aparılıb



Bax 11

## Tarixin təkrarlanan gerçəklikləri

Bax 10



Soyqırım, genosid bütün əhali qruplarının, etnosların, irqi, milli, etnik, yaxud dini əlamətlərinə görə tamamilə və qismən məhv edilməsi deməkdir. Azərbaycan xalqı ermənilər tərəfindən...

## Ramazan ayı bu tarixdə başlayacaq



Bax 3

## Kreml: “Qarabağda “İskəndər”in istifadəsi ilə bağlı məlumatımız yoxdur”



Bax 11

## Türkiyə millisi FİFA reytinqində irəlilədi



Bax 16

# “Gəlin, bir yerdə deyək: “Azıx Azərbaycandır!”, “Qarabağ Azərbaycandır!”





### Prezident İlham Əliyev: “Azad edilmiş torpaqlarda 67 məscid var idi, cəmi ikisi qalıb, yarıdağılmış”

“Azərbaycan ərazisində bütün dinlərin məbədləri dövlət tərəfindən qorunur, dövlət tərəfindən tikilir və bütün dünya bunu bilir”. Bu fikirləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Füzuli və Xocavənd rayonlarına səfəri çərçivəsində Hünərli kəndindəki Alban məbədi ilə tanış olarkən bildirib. Bildiyimiz kimi, əhalisinin əksəriyyəti müsəlman olan Azərbaycanda müsəlmanlar, pravoslavlar, katoliklər, protestantlar, yəhudilər daxil olmaqla, müxtəlif etnik və dini qruplar əsrlərdir qarşılıqlı hörmət şəraitində yaşayır. Ölkə əhalisinin 96 faizinin müsəlman olmasına baxmayaraq, Azərbaycanda dövlətin dəstəyi hesabına sinaqoqlar, məscidlər, kilsələr tikilib və bərpa olunub.

Bu gün Azərbaycanda xristianlığın ayrı-ayrı cərəyanlarının icmaları sərbəst şəkildə fəaliyyət göstərir və 7 sinaqoq, 4 gürcü kilsəsi də fəaliyyətdədir. Bütün bunlarla yanaşı, paytaxtımızın mərkəzində erməni kilsəsi də var. Bu illər ərzində kilsəyə toxunulmayıb. Bu, xalqımıza məxsus olan dəyərdir, xalqımızın tolerantlığının göstəricisidir. Cənab Prezidentin qeyd etdiyi kimi, “İndi gəlsinlər, baxsınlar Azərbaycanın müxtəlif yerlərində xristian abidələri necə qorunur... Ermənilərin vəhşiliyini dünya bilməlidir, görməlidir bizim məscidlərimiz nə gündədir. Azad edilmiş torpaqlarda 67 məscid var idi, cəmi ikisi qalıb, yarıdağılmış. Özü də onlardan müxtəlif məqsədlər üçün istifadə ediblər. Alban kilsəsini də bu günə qoyublar. Bəlkə burada da heyvan saxlayıblar, burada da dəmir-dümür saxlayıblar, orada o dəmir-dümürlərin bir hissəsi qalıb. Ona görə hər kəs bunu görməlidir, bilməlidir. Əgər kimsə bundan sonra bizə qarşı hansısa əsassız ittiham irəli sürmək istəsə, o, cavabını alacaq, necə ki, bu günə qədər alıb”.

### “ERMƏNİLƏR NECƏ Kİ, BİZİM MƏSCİDLƏRİMİZİ TƏHQİR EDİBLƏR, QƏDİM ALBAN MƏBƏDİNİ DƏ TƏHQİR ETMİŞLƏR”

Erməni qəsbkarlarının ərazilərimizdə abidələrin saxtalaşdırılması istiqamətində apardığı işlər Ermənistanın özünü təsdiqləmək, tarixini, mədəniyyətini yaratmaq siyasətinə xidmət edib. 30 ilə yaxın işğal altında olan tarixi və memarlıq abidələrimiz olan Qarğabazar kəndində Cəlil turbəsi, Aşağı Veysəlli kəndində Mirəli turbəsi, Qocəhmədli kəndində məscid binası, Horadiz kəndində məscid binası, Horadiz kəndində İmamzadə turbəsi, Füzuli şəhərində məscid binası, Aşağı Aybasandı kəndində İbrahim turbəsi və s. onlarla belə tarixi əhəmiyyətli abidələrimiz dağıdılıb, məhv edilib, tanınmaz hala salınıbdır. Əlbəttə ki, Azərbaycanın ən nadir tarixi abidələri onun tarixini, adət və ənələrini, onun mədəni kökünü özündə ehtiva edir. “Bura qədim Alban məbədidir, Alban kilsəsidir, Hünərli kəndində yerləşir”, deyən dövlət başçısı ermənilərin bu kilsəni də erməniləşdirmək istədiklərini və burada erməni dilində yazılar yazdıqlarını, ancaq buna nail ola bilmədiklərini bildirib: “İndi əgər bu, erməni kilsəsi olsaydı, bunu belə vəziyyətdə qoyardılarmı? Tövləyə oxşayır, elə bil ki, tövlədir, zibilxanadır. Bu, bizim qədim tarixi abidəmizdir, udi qardaşlarımızın məbədidir. Onlar buraya da gələcəklər. Ermənilər necə ki, bizim məscidlərimizi təhqir ediblər, qədim Alban məbədini də təhqir etmişlər. Amma biz bərpa edəcəyik. Bütün bu yazılar saxta yazılardır, sonradan yazılmış yazılardır. Onlar bizim qədim torpaqlarımızda özləri üçün saxta tarix yaradıblar. Amma buna nail ola bilməyiblər, biz onları ifşa etmişik. Bu kilsənin - alban məbədinin bu vəziyyətdə olması bir daha erməni saxtakarlığını göstərir. Erməni kilsəsi olsaydı, bunu təmir etdirərdilər”.

### “ƏGƏR BU, ERMƏNİ KİLSƏSİ OLSAYDI, BUNU YAZARDI - “İQOR”, “AŞA”?”

Təbii ki, ermənilər onlara məxsus olan abidələri hifs edər, onu qoruyardılar. Amma təcavüzkar ermənilər Azərbaycan xalqının abidələrinə münasibətdə qəddardırlar, dağıdıcı və yırtıcıdırlar: “Baxın, buraya baxın, erməni kilsəsi olsaydı, bunları yazardılar? Yazardılar bunları? “Kamo”, “Artur”, nə bilim, “Marta”. Öz kilsələrini belə təhqir edərdilər? Bax, bu daşların hamısı saxtadır. Bu, erməni saxtakarlığıdır. İçəridə də, gəlin buraya, əgər bu, erməni kilsəsi olsaydı, bunu yazardı - “İqor”, “Aşa”? Uçurublar, dağıdıblar, qapını da yandırıblar”. Baş verənlər nəyi göstərir? Əlbəttə ki, ermənilərin daş yaddaşımıza olan münasibətidir. Yeni tarix yazmaq, yaratmaq istəkləridir. Özünün zənginliyi olmayan başqasının da zəngin, qiymətli dəyərlərinə xor baxar. Bu, aksiomadır. Bütün dünya bu vəhşiliyi görür və onların yaritmaz əməlləri, sahib olmadığı dəyərlərə qarşı zorakılıqları diqqətdən qaçmır. Əsilsiz, köksüz bir “xalq” başqa cür hərəkət də edə bilməz.

Daş dövrü insanlarının yaşayış yeri kimi məşhur olan Azıx mağarası da uzun illər düşmənin işğalı altında olub. Mağara 1960-cı ildə Məmmədəli Hüseynovun rəhbərliyi ilə AMEA-nın “Paleolit Arxeoloji Ekspedisiyası” tərəfindən aşkar olunmuşdur. Aparılmış tədqiqat işləri zamanı on mədəni təbəqə aşkarlanmışdır. Mağarada Quruçay mədəniyyəti, Aşel mədəniyyəti və Mustye mədəniyyəti dövründə yaşayış olduğu müəyyən edilmişdir. Mənbələrdən bəllidir ki, 1968-ci ilin iyununda Məmmədəli Hüseynovun rəhbərliyi altında Paleolit arxeoloji ekspedisiyası Azıx düşərgəsinin V təbəqəsinin IV horizontunda apardığı arxeoloji qazıntılar zamanı bir neçə daş məmulatı ilə birlikdə ibtidai insana məxsus çənə aşkar olunmuşdur.

Səfər çərçivəsində Azıx mağarasında olan dövlət başçısı buranın dünyanın ən qədim insanının yaşayış yerlərindən biri və Azərbaycan tarixinə məxsus, tarixi sərvətin olduğunu bildirib: “Ermənistan bu mağarada qanunsuz olaraq işlər aparmışdır, xaricdən qanunsuz olaraq alimlər gətizdirmişdir. Onlar bu mağaraya, bizim tarixi irsimizə böyük ziyan vurmuşlar. Onlar bu ziyanın hamısını ödəyəcəklər. Onları məcbur edəcəyik. Azıx mağarasını azərbaycanlı alim aşkarlayıb. Azıx mağarası Azərbaycan ərazisində yerləşir. Bundan sonra azərbaycanlı alimlər və onların dəvəti ilə gələcək xarici alimlər burada qanuni yollarla tədqiqatlar aparacaqlar”.

Azərbaycan 44 günlük Vətən müharibəsində neçə illərə bərabər bir yol getdi, döyüş əməliyyatı apardı. Dünyanı təəccübləndirən, hərb tarixində yeni səhifə olan müharibədə qalib oldu. 30 illik bir həsrətə son qoyuldu. Tarixi torpaqlarımız işğaldan azad olundu. Xalqımız üçün geniş yollar açıldı. Azərbaycan xalqının həmrəyliyi, xalq-iqtidar birliyi uğurları şərtləndirən amil olduğundan ölkəmizi daha da böyük nailiyyətlər gözləyir. Cənab Prezidentin vurğuladığı kimi, “Bütün zirvələri qət edəcəyik. Elə zirvə yoxdur ki, onu biz qət edə bilməyək. Gəlin, bir yerdə deyək: “Azıx Azərbaycandır!”, “Qarabağ Azərbaycandır!”.

***Nəzakət ƏLƏDDİNQIZI***


Tedros Adhanom Ghebreyesus @DrTedros · 12 Std.
Thank you, @presidentaz Aliyev for your leadership in calling for equitable, affordable, timely and universal access to #COVID19 vaccines at the UN Human Rights Council. I agree we must do more to ensure vaccines are fairly distributed. Together for vaccine and #HealthEquity!
31 399 651

# Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru Azərbaycan Prezidentinə təşəkkür edib

***Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru Tedros Adhanom Qebreyesus şəxsi "Twitter" hesabında aprelin 6-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Ümumdünya Sağlamlıq Günü münasibətilə videomüraciətindəki çağırışları ilə bağlı paylaşım edib.***

AZƏRTAC xəbər verir ki, ÜST-ün Baş direktoru paylaşımında Azərbaycan Prezidentinə təşəkkür edərək qeyd edib: "BMT-nin İnsan Hüquqları Şurasında ədalətli, əlverişli, vaxtında və universal şəkildə COVID-19 peyvəndlərinə çıxışın əldə olunması ilə bağlı çağırışdakı liderliyinizə görə Prezident Əliyev, Sizə təşəkkür edirəm. Razıyam ki, biz vaksinlərin ədalətli paylanmasını təmin etmək, peyvənd və sağlamlıq təminatı üçün birlikdə daha çox iş görməliyik".

# Sahibə Qafarova Misir səfiri ilə görüşüb



**Aprelin 7-də Milli Məclisin Sədri Sahibə Qafarova Misir Ərəb Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Adel İbrahim Ahmed İbrahim ilə görüşüb. Spiker qonağı salamlayaraq, Misirin Azərbaycanın müstəqilliyini ilk tanıyan ölkələrdən biri olduğunu vurğulayıb. O, ölkəmizin Misirlə ikitərəfli münasibətlərin daha da inkişaf etdirilməsinə əhəmiyyət verdiyini bildirərək, tərəflər arasında imzalanmış sənədlərin əməkdaşlığın daha da dərinləşməsinə müsbət töhfələr verdiyini qeyd edib.**

İki ölkənin qanunvericilik orqanları arasında əməkdaşlığın əhəmiyyətini bildirən Sahibə Qafarova deyib ki, Milli Məclisdə Azərbaycan-Misir parlamentlərarası əlaqələr üzrə işçi qrupu fəaliyyət göstərir.

Görüşdə Azərbaycanın Vətən müharibəsində əldə etdiyi böyük qələbə haqqında da məlumat verilib. Bildirilib ki, Azərbaycan bu qələbə nəticəsində Ermənistanın işğal altında saxladığı torpaqlarımızı azad edərək, öz ərazi bütövlüyünü və ədaləti bərpa edib. Bununla da ölkəmiz üçün yeni mərhələnin başlandığını diqqətə çatdıran Sahibə Qafarova vurğulayıb ki, hazırda qarşıda duran əsas məqsədlərdən biri azad olunmuş ərazilərimizin ən yüksək səviyyədə yenidən qurulması, şəhər və rayonlarımızın bərpa olunmasıdır.

Görüşdə qeyd olunub ki, ermənilər 30 il ərzində işğal etdikləri Azərbaycan torpaqlarında böyük dağıntılar, vandalizm aktları törədib, şəhərləri, evləri, kəndləri, tarixi, mədəni və dini abidələri, bütün infrastrukturu tamamilə dağıdıb, talan edib. Ermənistan həmçinin həmin əraziləri minalayıb və bu gün bütün çağırışlara baxmayaraq, beynəlxalq hüququn prinsiplərini kobud şəkildə pozmaqda davam edir, minalanmış ərazilərin xəritələrini Azərbaycan tərəfinə verməkdən imtina edir. Bunun nəticəsi olaraq, müharibədən sonra bir çox azərbaycanlı mülki şəxs və hərbçi minaya düşərək həlak olub və yaralanıb. Sahibə Qafarova həmin xəritələrin Azərbaycan tərəfinə verilməməsinin hərbi cinayət olduğunu vurğulayıb.

Səmimi qəbul üçün minnətdarlığını bildirən Misir Ərəb Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Adel İbrahim Ahmed İbrahim ölkəmizdə fəaliyyət göstərməsindən məmnunluğunu ifadə edib. O, Azərbaycanın bütün sahələrdə böyük nailiyyətlər qazandığını və inkişaf etdiyini vurğulayaraq hər iki ölkə rəhbərliyinin dəstəyi ilə ölkələrimiz arasında əlaqələrin daha da dərinləşdiyini bildirib.

Səfir iki ölkənin parlamentləri arasında əlaqələrin səviyyəsindən məmnunluğunu qeyd edib. Görüşdə, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# "Caspian News" portalında 44 günlük müharibədə Azərbaycana qarşı "İsgəndər" raketindən istifadə olunmasından bəhs edən məqalə yerləşdirilib

"Caspian News" xəbər portalında "Ermənistanın Azərbaycana qarşı "İsgəndər" raketlərindən istifadə etməsi yeni faktlarla təsdiqlənib" sərlövhəli məqalə dərc edilib.


CASPIAN NEWS Politics
Advertisement
nar+ ilə hədiyyəli bahar
Armenia's Use of Iskander Missiles Against Azerbaijan Confirmed with New Evidences
By Nargiz Mammadli April 7, 2021
The Iskander missile system is produced in two variants: Iskander-M and Iskander-E. The M version is intended for use by the Russian military, while the E type is purposed for export. / Russian Defense Ministry Press Service/AP Photo
Armenia's use of Russian-made Iskander ballistic missiles during the 2020 war with Azerbaijan in the latter's Karabakh region is once again in focus among regional and international media.
The national mine clearance agency of Azerbaijan found wreckages of two exploded rockets around the Azerbaijani city of Shusha in the Karabakh region as a result of the ongoing clearance operations. The debris, discovered on March 15, was confirmed to belong to Iskander missiles

AZƏRTAC xəbər verir ki, məqalədə 2020-ci ildə baş vermiş 44 günlük Qarabağ müharibəsi zamanı Ermənistanın Azərbaycana qarşı "İsgəndər" raketlərindən istifadə etməsinin regional və beynəlxalq media qurumlarının diqqət mərkəzində olduğu vurğulanır.

Yazıda bildirilir ki, Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin əməkdaşları tərəfindən işğaldan azad olunmuş ərazilərdə aparılan davamlı minatəmizləmə əməliyyatları nəticəsində Azərbaycanın Qarabağ bölgəsindəki Şuşa şəhəri ətrafında iki partlamış raketin qalıqları tapılıb və martın 15-də tapılmış həmin raket qalıqlarının Rusiya istehsalı olan "İsgəndər" raketləri olduğu təsdiqlənib. Həmin raket qalıqları agentliyin nümayəndələri tərəfindən keçən həftə paytaxt Bakıda nümayiş etdirilib ki, bu da Azərbaycana qarşı böyük dağıdıcı gücə malik raketin istifadə olunması ilə bağlı bir sıra suallar doğurub.

"İsgəndər" raketlərinin xüsusiyyətləri barədə ətraflı məlumat verilən məqalədə qeyd olunur ki, "İsgəndər" raketi çoxsaylı döyüş sursatları, o cümlədən döyüş başlığı, gücləndirilmiş partlayış başlığı və anti-radar missiyaları üçün nəzərdə tutulmuş elektromaqnit cihazı, eləcə də nüvə başlıqları ilə təchiz edilə bilən raket növüdür. "İsgəndər" raket sistemi iki variantda istehsal olunur: "İsgəndər-M" və İsgəndər-E". "İsgəndər-M" raket növü Rusiya hərbçilərinin istifadəsi üçün, "İsgəndər-E" isə ixrac üçün nəzərdə tutulub. İxrac üçün nəzərdə tutulan "İsgəndər-E" raketi maksimum 280 kilometr, ballistik raket kompleksi - "İsgəndər-M" isə 500 kilometr radiusa malikdir.

Məqalədə, həmçinin qeyd olunur ki, "İsgəndər" raketinin Azərbaycanın Şuşa şəhəri istiqamətinə buraxılması ilə bağlı ətraflı məlumat təqdim edən məhz Ermənistanın keçmiş baş qərargah rəisi Onik Qasparyan olub. Ermənistanın keçmiş baş qərargah rəisi Onik Qasparyanın "Forbes" jurnalına verdiyi müsahibəyə istinad edilən məqaləyə deyilir: ""İsgəndər" raketindən istifadə etməyimə yalnız Şuşa şəhərində icazə verildi və mən də istifadə etdim. Bu, bizə müəyyən üstünlüklər verdi və biz bir neçə tankı şəhərə gətirməyi bacara bildik. Baş nazir Nikol Paşinyan isə beynəlxalq ictimaiyyətin sərt qınağından qorxaraq raketin istifadə edilməsini qadağan etmişdi".

# Şneor Seqal: Ağdamda hər şey dağıdılıb

"Biz bu gün Ağdama şəhərinə, işğaldan azad olunmuş ərazilərə gəldik. Bu ərazilərin doğma insanları uzun müddət idi burda olmurdu. Bilirsiniz, əlbəttə ki, bu yerlərə baxmaq çox ağrılıdır. Görünür ki, burada həyat olmayıb. Hər şey dağıdılıb". Bunu Azərbaycan Aşkenazi Yəhudi İcmasının sədri Şneor Seqal deyib.



"Bu gün burada bütün dini konfessiyaların nümayəndələri yenidən toplaşıb. Biz birlikdə dua etdik. Düşünürəm ki, Allah yuxarıdan baxır və başa düşür ki, biz bu sınağı uğurla keçdik və yenidən bu yerlərə qayıdırıq. Bu yerlərə başqa missiyalarla, düşüncələrlə qayıdırıq. Biz hər gün yəhudi dua sında üç dəfə deyirik ki, "Allah bizə biz birlikdə olanda xeyir-dua ver!" Əminəm ki, biz bu gün birləşdik, Allah bunu görür və bizə bu torpaqlarda böyük xeyir-dua verəcək. Biz yaxın vaxtlarda yenidən bura qayıdanda bu ərazilərin necə inkişaf edib çiçəkləndiyinin şahidi olacağıq. Qoy, Allah bizim Prezidentimizə və bütün bu bərpa işində iştirak edən, bu yerlərə həyatı qaytaran hər kəsə qüvvət və xeyir-dua versin. Mən həlak olmuşların xatirəsi və bütün yaralıların sağalması üçün dua etmək istəyirəm", - deyə o vurğulayıb.

## Ramazan ayı bu tarixdə başlayacaq



"Ramazan ayı ilə bağlı hələ ki iclas etməmişik. Biz Ramazan ayı ilə bağlı fətva verəndə yeni bir şey etmirik. Bu ayı Allah-Təala yaradıb. Ay bəzən bir gün sonra görünür". SİA-nın məlumatına görə, bunu jurnalistlərə açıqlamasında Ağdamda səfərdə olan Qafqaz Müsəlmanları İdarəsinin rəhbəri Allahşükür Paşazadə deyib. A.Paşazadə bildirib ki, bu, elmi məsələdir, rəsədxana hansı məlumatları bizə versə, ona uyğun da qərar veriləcək. Ola bilər ki, ay bizim üfüqdə tez və ya gec görünsün. Bu məsələ bizdən asılı deyil.

# Hulusi Akar: Birlik və bərabərliyimiz Qarabağ ətrafında daha da möhkəmləndi



***"Azərbaycanlı qardaşlarımızla əməkdaşlığımızı davam etdiririk". Bunu Türkiyənin milli müdafiə naziri Hulusi Akar deyib. O bildirib ki, Azərbaycanın Qarabağda qazandığı 44 günlük Zəfərinin əhəmiyyəti çox böyükdür.***

"Birlik və bərabərliyimiz Qarabağ ətrafında daha da möhkəmləndi. Bunu hər kəs gördü. Türkün gücü, türkün yumruğu erməninin başına dəydi. 30 ildən çoxdur davam edən işğal, zülm sona çatdı. Qarabağda qazanılan Qələbə tarixə qızıl hərflərlə yazılacaq. Türkiyə və Azərbaycan orduları hər zaman hər yerdə bərabər çalışa bilmədir. Bunun üçün yüksək templə hazırlıqlarımızı görürük", - deyə H. Akar vurğulayıb.

# Ceyhun Bayramov Türkiyə səfiri ilə görüşüb



Aprelin 7-də xarici işlər naziri Ceyhun Bayramov Türkiyə Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Erkan Özoralı diplomatik fəaliyyətinin başa çatması ilə əlaqədar qəbul edib.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən "İki sahil"ə verilən məlumata görə, nazir Ceyhun Bayramov iki qardaş ölkə arasında mövcud olan ən yüksək səviyyəli münasibətlərin inkişafında səfir qismində Erkan Özaralın rolunu məmnunluqla qeyd edərək, bu xüsusda verdiyi töhfəyə görə ona təşəkkürünü bildirdi.

Azərbaycan və Türkiyə arasında mövcud olan yüksək səviyyəli münasibətlərin, o cümlədən səfirlərin üzərinə böyük məsuliyyət qoyduğunu bildirən nazir Ceyhun Bayramov, Azərbaycandakı diplomatik fəaliyyəti müddətində səfir Erkan Özaralın bu önəmli vəzifənin öhdəsindən müvəffəqiyyətlə gəldiyini və ölkəmiz üçün tarixi bir dövrdə qardaş Türkiyənin elçisi qismində uğurla fəaliyyət göstərdiyini vurğuladı.

Səfir Erkan Özaral Azərbaycanı Türkiyədən ayırmadığını və bunun hər zaman belə olacağını bildirdi. O, Azərbaycan üçün çox önəmli bir dövrdə səfir qismində çalışmaqdan qürur hissi keçirdiyini söylədi və diplomatik fəaliyyəti müddətində ona göstərilən yüksək diqqət və əməkdaşlığa görə təşəkkürünü ifadə etdi. İki ölkə arasında səfərlər üçün viza tələbinin aradan qaldırılmasını və vətəndaşlarımızın artıq şəxsiyyət vəsiqəsi əsasında səfər edə biləcəklərini məmnunluqla vurğulayan səfir, bunu ölkələrimiz arasındakı qardaşlıq münasibətlərinin təzahürü kimi qiymətləndirdi.

Nazir Ceyhun Bayramov Erkan Özaralın növbəti vəzifəsinin öhdəsindən də yüksək peşəkarlıqla gələcəyindən əminlik ifadə edərək, səfirə gələcək fəaliyyətində uğurlar arzu etdi. Tərəflər, həmçinin qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi apardılar.

# Dünya ölkələri pandemiya üçün 16 trln dollar xərcləyib




Koronavirus (COVID-19) pandemiyası ilə əlaqədar olaraq, ölkələrin son 12 ayda fiskal tədbirlərinin həcmi 16 trilyon ABŞ dolları təşkil edir. Bu barədə Beynəlxalq Valyuta Fondunun (IMF) açıqladığı "Fiscal Monitor"un aprel buraxılışında qeyd edilib.

Hesabata görə, belə maliyyə siyasəti iqtisadi fəaliyyətdəki daralmanı da azaldıb. Valyuta Fondu hesab edir ki, 2020-ci ilin göstəriciləri araşdırılarkən sürpriz rəqəmlərlə qarşılaşılıb və bu da 2021-ci ilin iqtisadi inkişaf proqnozlarına yenidən baxılmasına şərait yaradıb və tədricən iqtisadi və ictimai bacarıqlar bərpa edilməyə başlayıb. "Virusun yayılmasından 11 ay sonra Çin, ABŞ və Almaniyadan olan alimlərin ilk vaksini hazırlaması və 91 yaşlı ingilis qadının üzərində sınaqdan keçirməsi ilə həyata yenidən öz axarına dönməyə başlayıb. Hazırda isə dünyada yarım milyarddan çox insan peyvəndlənib. Vaksinasiya sürətlə irəliləyir, amma peyvəndlər inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında qeyri-bərabər paylanıb".

IMF hesab edir ki, peyvəndlər inkişaf etmiş ölkələrə 1 trilyon ABŞ dollara qədər gəlir gətirə bilər və qlobal peyvəndlənmə indiyə qədər təyin olunan ən yüksək gəlirə sahib olan ictimai layihə ola bilər".

# Qalibliyin amili- "Biz birlikdə güclüyük!"

### Prezident İlham Əliyev: "Pandemiyanın öhdəsindən yalnız birlikdə gələcəyik"



COVID-19 pandemiyası zamanı hər bir dövlətin öz strategiyası, koronavirusa qarşı mübarizədə fərqli yanaşma tərzi və öz metodları mövcud oldu. Şübhəsiz ki, indi hər bir ölkə öz vətəndaşlarını böhrandan az itki ilə çıxartmağa çalışır. Postsovet məkanı da koronavirus pandemiyasından əziyyət çəkən bölgələr sırasındadır. Lakin bölgənin lider dövlətlərindən olan Azərbaycanın pandemiyaya qarşı mübarizədə göstərdiyi nümunə diqqətəlayiqdir. Belə ki, Azərbaycanda koronavirus pandemiyasından bir qədər əvvəl həyatın bütün sahələrinə təsir göstərən böyük islahatlar elan edildi və qısa müddətdə həyata keçirildi. Azərbaycanda bütün sahələrdə sabitlik təmin edildi, əhalinin məşğulluq problemləri müsbət həllini tapdı və sadə vətəndaşın rifah halı iqtisadi inkişafının əsas prioritetlərindən birinə çevrildi. Koronavirus pandemiyası başlamazdan öncə Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə kölgə iqtisadiyyatına qarşı ciddi tədbirlər görüldü, şəffaflıq təmin edildi və dövlət orqanlarının fəaliyyətində informasiya texnologiyalarının tətbiqi təmin edildi, dövlət xidmətləri sahəsində mərkəzləşdirilmiş elektron məlumat sistemi yaradıldı. Bir sözlə, Prezident İlham Əliyevin rəhbərliyi ilə vaxtında aparılan düzgün siyasət və atılan zəruri addımlar tektonik fəlakət zamanı öz sözünü deyə bildi.

### "Hazırda Azərbaycanda səhiyyə sistemində əhəmiyyətli dəyişikliklər baş verir"

Prezident İlham Əliyev aprelin 6-da Ümumdünya Səhiyyə Təşkilatının İsveçrənin Cenevrə şəhərində yerləşən mənzil qərargahında təşkilatın Baş direktoru Tedros Adhanom Qebreyesusun təşəbbüsü ilə təqdim olunan videomüraciətində bildirib ki, 1950-ci ildən etibarən hər il aprelin 7-də Ümumdünya Sağlamlıq Günü qeyd edilir: "Lakin 2021-ci ildə sağlamlığın əhəmiyyəti daha da artıb. Müasir, davamlı, yüksək keyfiyyətli səhiyyə sisteminə sahib olmaq hər bir ölkə üçün prioritetdir".

Dövlətimizin başçısı müraciətində qeyd edib ki, hazırda Azərbaycanda səhiyyə sistemində əhəmiyyətli dəyişikliklər baş verir. Azərbaycan icbari tibbi sığorta tətbiq etməklə ilkin tibbi yardımı gücləndirir, təcili tibbi yardım xidmətlərini yeniləyir, ölkədə elektron səhiyyə platforması və dövlət səhiyyə hesablarını istifadəyə verməklə rəqəmsallaşmanı təmin edir.

### "Azərbaycanın pandemiyaya qarşı qlobal səyləri səfərbər edən ilk ölkələrdəndir"

COVID-19 pandemiyasının ikinci ilinin bütün dünyada səhiyyə sistemlərinə böyük təzyiq göstərməyə davam etdiyini bildirən Prezident İlham Əliyev Azərbaycanın pandemiyaya qarşı qlobal səyləri səfərbər edən ilk ölkələrdən biri olduğunu vurğulayaraq deyib: "Bizim təşəbbüsümüzlə 2020-ci ilin aprelində Türk Şurasının Zirvə toplantısı, 2020-ci ilin mayında Qoşulmama Hərəkatının Zirvə toplantısı və 2020-ci ilin dekabrında BMT Baş Assambleyasının dövlət və hökumət başçıları səviyyəsində xüsusi sessiyası keçirilib. Azərbaycan öz beynəlxalq məsuliyyətinə sadiq olaraq Ümumdünya Səhiyyə Təşkilatına 10 milyon ABŞ dolları həcmində könüllü maliyyə yardımı ayırıb. Biz, həmçinin 30-dan çox ölkəyə koronavirusla mübarizədə birbaşa humanitar və maliyyə yardımı göstərmişik".

### "Biz pandemiyanın öhdəsindən yalnız birlikdə gələcək və normal həyata qayıdacağıq"

Prezident İlham Əliyev təqdim olunan videomüraciətində bildirib ki, builki Ümumdünya Sağlamlıq Günü "Daha ədalətli və daha sağlam dünyanın qurulması" mövzusuna həsr olunub: "Bu mənada peyvəndlərin bərabər və ədalətli şəkildə paylanması məsələsi mühüm əhəmiyyət kəsb edir. Bununla belə, peyvəndlərin inkişaf etməkdə olan və inkişaf etmiş ölkələr arasında qeyri-bərabər və ədalətsiz paylanması bizi dərindən narahat edir. Bəzi ölkələr ehtiyacı olduğundan dəfələrlə çox peyvənd tədarük edir. Aydındır ki, belə şəraitdə digər ölkələr peyvənd qıtlığı ilə üzləşəcək".

Dövlətimizin başçısı deyib ki, Azərbaycan peyvəndlərin paylanmasında ədalətliliyi dəstəkləyərək BMT-nin İnsan Hüquqları Şurasında "Koronavirus pandemiyası ilə mübarizədə bütün ölkələrin peyvəndlərə bərabər, məqbul qiymətə, vaxtında və universal əlçatanlığının təmin edilməsi" adlı qətnamə layihəsi irəli sürüb. Qətnamə bu il martın 23-də konsensus əsasında qəbul edilib: "Azərbaycan, həmçinin COVAX təşəbbüsünə qoşulan və onu dəstəkləyən ilk ölkələrdən biri olub. Biz və bütün beynəlxalq ictimaiyyət bu təşəbbüsün pandemiya ilə mübarizədə əməkdaşlıq və həmrəylik modeli olmağını gözləyir. Biz pandemiyanın öhdəsindən yalnız birlikdə gələcək və normal həyata qayıdacağıq".

Bəli, 2020-ci il, noyabrın 10-u. Azərbaycan Xalq-İqtidar-Ordu birliyi ilə Qarabağa qovuşdusa, tarixi ədalət bərpa olundusa, Qarabağ probleminə Qalib Nidası qoyuldusa, pandemiyaya qarşı mübarizədə də bir olmalıyıq. Və bu gün Azərbaycan Prezidenti İlham Əliyevin atdığı hər bir uğurlu addımı xalqımızda nikbinlik yaradır. Xalqımızın öz Prezidenti ətrafında birləşməsi və ölkə rəhbərini dəstəkləməsi pandemiyada üzərində qələbəni təmin edən başlıca amillərdən biridir. Bu gün bütün dünya Azərbaycanın təcrübəsini mənimsəyir. "Biz birlikdə güclüyük" şüarı ilə pandemiyaya qarşı savaşan Azərbaycan görünməmiş nümunə yarada bilib.

İnanırıq ki, bu çətinliklər arxada qalacaq, möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə xalqımız daha gözəl günlər yaşayacaq. Dövlət başçımızın dediyi kimi: "Biz pandemiyanın öhdəsindən yalnız birlikdə gələcək və normal həyata qayıdacağıq".

**RƏFİQƏ HÜSEYNOVA**

# Ekologiyanın və ətraf mühitin mühafizəsində yeni dönəm başlayır

## *Azərbaycan Prezidenti İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın ağacəkmə aksiyalarında iştirak etmələri ətraf mühitin qorunmasına xüsusi diqqətin göstəricisidir*

***Bu günün reallıqlarına əsaslanaraq demək olar ki, son 17 ildə həyata keçirilən uğurlu siyasət nəticəsində Azərbaycan beynəlxalq aləmdə iqtisadi möcüzələr ölkəsi, siyasi sabitlik adası kimi tanınır. Artıq dünyanın elə bir ölkəsi, elə bir beynəlxalq təşkilatı yoxdu ki, Azərbaycanla ikitərfli əlaqələrin, əməkdaşlıq münasibətlərinin qurulmasında maraqlı olmasın. Hər il ölkəmizə xarici investisyaların həcmi artmaqdadır. Bu, təkcə neft, qaz sənayesi deyil, ümumilikdə bütün sahələri əhatə etməkdədir.***

Söz yox ki, xarici sərmayə iqtisadiyyatın dirçəlişi üçün kapital rolunu oynamaqla yanaşı, daxili iqtisadi struktur islahatlarının aparılmasına mühüm təkan verir. Ölkə iqtisadiyyatına qoyulan investisiya, ancaq xarici sərmayə ilə yekunlaşmır. Artıq inkişaf edən Azərbaycan iqtisadiyyatında yerli sahibkarlıq subyektləri formalaşıb. Səbəbsiz deyil ki, hazırkı məqamda ölkə iqtisadiyyatına qoyulan investisiyanın 80 faizini yerli sahibkarlıq subyektlərinin payına düşür. Əlbəttə, iqtisadiyyatın inkişafı yeni iş yerlərinin açılması və əhalinin sosial vəziyyətinin daha da yaxşılaşması deməkdir. Amma o fikri də vurğulamaq lazımdır ki, iqtisadi inkişaf, yeni zavod və fabriklərin açılması qismən də olsa özü ilə ekoloji problemlər gətirir. Buna görədir ki, iqtisadiyyata ekoloji tələbin vacibliyi məsələsi gündəmə gəlmişdir. Yeni ölkədə ətraf mühitin mühafizəsi, havanın çirklənmədən qorunması başlıca məqsəd və vəzifə daşımalıdır. Ekoloji vəziyyətin yaxşılaşdırılması üçün tədbirlərin görülməsi, əsasən qanunsuz ağac kəsilmələrinin qarşısının alınması ilə mübarizədə hər bir kəs qətiyyətli olmalıdır.

Dövlətimizin bu istiqamətdə nümayiş etdirdiyi sərt tədbirlərə insanlar dəstək göstərməli, yardımçı olmalıdır. Nəzərə almaq lazımdır ki, ekoloji vəziyyətin yaxşılaşdırılması və ətraf mühitin qorunması istiqamətində qəbul edilən qanunlar, görülən tədbirlər yalnız insanların sağlamlığının qorumasına xidmət edir.









Müsbət məqam olaraq vurğulamaq lazımdır ki, əhali arasında, xüsusilə ali və orta məktəblərdə ekologiya və ətraf mühitin mühafizəsi ilə bağlı geniş şəkildə maarifləndirmə işləri aparılır. Mövcud problemlərin həll edilməsi üçün Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən beynəlxalq təşkilatlarla əlaqələrin genişləndirilməsinə xüsusi əhəmiyyət verilir. Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi BMT-nin İnkişaf, Ətraf Mühit, Sənayenin İnkişafı proqramları, NATO, Qlobal Ekoloji Fond, Avropa İqtisadi Əməkdaşlıq və İnkişaf təşkilatı, İqtisadi Əməkdaşlıq təşkilatı, Dünya Bankı, Asiya Bankı və Ümumdünya Vəhşi Təbiət fondu ilə ekologiya və ətraf mühitin qorunması istiqamətində səmərəli əməkdaşlıq əlaqələrinə malikdir. Bununla yanaşı, Azərbaycan Respublikası ekologiya və ətraf mühitin mühafizəsi ilə bu günə kimi 21 konvensiyaya qoşulmuş, müvafiq protokollar imzalamışdır. Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə bütün sahələrdə olduğu kimi, ekoloji problemlərin həlli, ətraf mühitin mühafizəsi, ekoloji tarazlığın bərpa edilməsi istiqamətində də mühüm sərəncamlar verilib, müvafiq addımlar atılıb, qərarlar verilib.

Ekoloji cəhətdən dayanıqlı sosial-iqtisadi inkişafa, meşələrin bərpa edilməsi və artırılmasına dair milli proqramlar, həmçinin Azərbaycanda hidrometeorologiyanın inkişafına dair Dövlət Proqramı uğurla yerinə yetirilir. Hər il dünyada iyunun 5-də qeyd olunan Ətraf Mühitin Mühafizəsi Günü Azərbaycanda da böyük coşqu və həmrəyliklə qeyd olunur. Həmin gün və sonrakı günlərdə ölkənin hər yerində insanlar bayram əhvali-ruhiyyəsi ilə küçə və meydanlara, dağ yamaclarına, meşə ətəklərinə çıxaraq minlərlə müxtəlif növ ağaclar əkirlər. Ölkə Prezidenti İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın ağacəkmə kampaniyalarında iştirak etmələri ətraf mühitin qorunmasına xüsusi diqqətin göstəricisi sayıla bilər. Son 17 il ərzində 130 min hektar sahədə meşəbərpa işləri aparılıb və yeni meşələr salınıb, 100 milyon ədəd ağac əkilib, 350 milyon ədəd əkin materialı yetişdirilib və 2 min ton toxum tədarük edilib. Meşə ilə örtülü ərazilərin sahəsi 11,4 %-dən 11,8 %-dək artıb. Həyata keçirilən ardıcıl tədbirlər nəticəsində xüsusi mühafizə olunan təbiət ərazilərinin sahəsi ölkə ərazisinin 4,5 %-dən 10,3 %-ə qədər çatdırılıb. Eyni zamanda, Bakı və Abşeron yarımadasının yaşıllaşdırılması ilə bağlı müasir metodlara əsaslanan iri yaşıllaşdırma layihələri də həyata keçirilib. Belə ki, 3600 hektardan artıq ərazidə 4,5 milyona yaxın ağac əkilib, müasir damcılı suvarma sistemləri ilə təmin olunub. Heydər Əliyev Fondunun ekologiyanın, ətraf mühitin qorunmasına xidmət edən "Hərəmiz bir ağac əkək" layihəsi də bu sahəyə böyük töhfələr verib. Heydər Əliyev Fondun prezidenti, UNESCO-nun və İSESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın təşəbbüsü ilə həyata keçirilən bu layihə çərçivəsində ölkəmizdə minlərlə növ ağac əkilib, meşə zolaqları salınıb.

Ölkə Prezidenti İlham Əliyevin diqqət və qayğısı nəticəsində paytaxt Bakı şəhərində və rayonlarda yüzlərlə park və yaşılıq zolaqları, bitki örtükləri salınıb. Əgər müstəqilliyimizin ilkin dövründə yaşıllıqlar, meşə zolaqları ölkə üzrə 11 faiz təşkil edirdisə, bu gün 16 faizə yüksəlib. Son 17 ildə 152,4 min ha meşəsalma və meşəbərpa tədbirləri aparılmış, 96,445 milyon ağac əkilmiş, 102,317 min ha cavan ağaclıqlar qiymətli meşə ağacları kateqoriyasına keçirilmişdir. 2493 ton toxum tədarük edilmiş, 470,7 milyondan artıq müxtəlif çeşiddə əkin materialları yetişdirilmişdir. Ümumilikdə bu gün ölkə ərazisində 9 Milli Park, 11 Dövlət Təbiət Qoruğu və 24 təbiət yasaqlığı fəaliyyət göstərir. Xüsusi mühafizə olunan təbiət əraziləri ölkə ərazisinin 10,3 faizini, o cümlədən milli parklar 3,7 faizini təşkil edir. Dövlətimizin başçısı Cənab İlham Əliyevin tapşırığına uyğun olaraq neftlə və digər istehsalat tullantıları ilə çirklənmiş torpaqların, lay suları altında qalan ərazilərin ekoloji vəziyyətinin yaxşılaşdırılması məqsədilə ərazilərdə müxtəlif növ minlərlə ağac əkilib, yeni park və xiyabanlar salınıb. Bir vaxtlar neft tullantıları ilə çirklənən indiki "Ağ şəhər" və digər ərazilərdə görülən işlərin nəticəsində neft çöküntüləri təmizlənib. Bu ərazilər Bakı şəhərinin müasir yaşayış və mədəniyyət komplekslərinə, müasir ekoloji layihələrə çevrilib. Bütün bunlar ətraf mühitin qorunmasına, xüsusilə də vətəndaşların sağlam mühitdə yaşamasına xidmət edir.

Bununla bağlı Ekologiya və Təbii Sərvətlər naziri Muxtar Babayev bildirib ki, uzun illər ərzində neft sənayesinin fəaliyyətindən əmələ gəlmiş tullantılar Abşeron yarımadasında bir sıra ərazilərin çirklənməsinə səbəb olub: "Çirklənmiş ərazilərin bərpası əhalinin sağlamlığı üçün risklərin azaldılması, Bakı şəhərinin və ətraf qəsəbələrin inkişafı, təmizlənmiş ərazilərin iqtisadi dövriyyəyə qaytarılması baxımından zəruridir.

Ardı Səh. 6






# Ekologiyanın və ətraf mühitin mühafizəsində yeni dönəm başlayır

*Azərbaycan Prezidenti İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın ağacəkmə aksiyalarında iştirak etmələri ətraf mühitin qorunmasına xüsusi diqqətin göstəricisidir*

Əvvəli-Səh-5

Bununla əlaqədar çirklənmiş ərazilərin qiymətləndirilməsi, təmizlənməsi üsullarını və gələcək istifadə təyinatını müəyyən etmək üçün inventarlaşdırma işləri aparılıb. Heydər Əliyev Beynəlxalq Aeroportu ətrafında və Suraxanı rayonunda ərazilər lay suları, neft, duz, yod və digər çirkləndiricilərdən təmizlənərək burada həmişəyaşıl ağac və kol növlərindən ibarət yaşıllıqlar salınıb. Eləcə də, respublikanın magistral avtomobil yollarının mühafizə zolaqlarının külək və su eroziyasından mühafizəsi, estetik görünüşünün yaxşılaşdırılması məqsədilə yolların ətrafının yaşıllaşdırılması tədbirləri həyata keçirilir və qənaətcil suvarma şəbəkəsi qurulur".

Muxtar Babayev onu da bildirib ki, Abşeron yarımadasının 2020-2025-ci illər üçün yaşıllaşdırılması proqramına əsasən, 10 min hektaradək ərazinin yaşıllaşdırılması planlaşdırılır: "Azmeşəli ölkə kimi meşələrin artırılması və mühafizəsi də prioritet istiqamətlərimizdəndir. 2019-cu ildə Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü ilə mütəfəkkir şair İmadəddin Nəsiminin yubileyi münasibətilə keçirilən aksiyada ölkə üzrə bir gündə 650 min ağac əkilib. Meşəsalma fəaliyyəti ilə yanaşı, meşələrin mühafizəsi tədbirləri də gücləndirilir, meşə və qeyri-meşə fondu torpaqlarında meyvə bağlarının salınması istiqamətində tədbirlər davam etdirilir. Meşə ilə örtülü ərazilərin dəqiqləşdirilməsi üçün beynəlxalq təcrübələr əsasında inventarlaşma işlərinə başlamışıq və 10 illik müddət üçün Milli Meşə Proqramı hazırlanıb".

## Ermənistanın işğal edilmiş ərazilərdə törətdiyi ekoloji terroru cavabsız qalmayacaq

Erməni vəhşiliyi, vanalizmi yalnız işğal altında olmuş Qarabağda insanların öldürülməsi, evlərin məhv edilməsi ilə yekunlaşmayıb. Bu vəhşi erməni toplumu həm də zəbt etdikləri Azərbaycan ərazilərində ekoloji terror həyata keçirmiş, yeraltı, yerüstü sərvətlərini talan edərək viran qoymuşlar. Bunun nəticəsində ətraf mühitə sağalmaz on illər çəkəcək yaralar vurmuşlar. Erməni işğalı zamanı torpaqlarımızda ölkəmizin zəngin faydalı qazıntı yataqları, o cümlədən 155 növ yeraltı və yerüstü sərvəti qarət və talan edilmişdir. Kəlbəcər və Zəngilan ərazilərində 15 qızıl, 6 civə, 2 mis, 13 müxtəlif növ tikinti daşı, 19 üzlük daşı, 10 mişar daşı, 4 sement xammalı, 13 müxtəlif növ tikinti daşları, 1 soda istehsalı üçün xammal, 21 pemza və vulkan külü, 10 gil, 9 qum-çınqıl, 5 tikinti qumu, 9 gips, anhidrid və gəc, 1 perlit, 1 obsidian, 3 vermikulit, 14 əlvan və bəzək daşları, 11 şirin yeraltı su və 10 mineral su yataqları vəhşicəsinə istismar və talan edilməklə Azərbaycana milyardlarla ABŞ dolları ziyan vurmuşlar.

Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinə istinadən verilən məlumata görə, erməni vəhşi toplumu tərəfindən talan edilən yeraltı və yerüstü sərvətlər Qızılbulaq, Mehmana, Dəmirli, Canyataq-gülyataq, Ağdərə, Şorbulaq, Şuşa, Şirlan, Turşsu, Xocalı, Zərinbax, Ağçay, Xəankəndi, Ediş, Xocavənd, Söyüdlü, Ağduzdağ, Tutxun, Ağyataq, Levçay, Kilsəli, Keştək, Keçəldağ, Çəlli, Yuxarı istisu, Aşağı istusu, Mozçay, Qoturlu, Çilkəz, narzanlı, Əhmədli, Hoçaz, Laçın, Novruzlu, Yuxarı Əkərəçay, Quşçu, Minkənd, Hacılı, Xanlıq, Qubadlı, Vejnəli, Bartaz, Oxçuçay, Zəngilan, Şərifan, Tuluz, Qaracalı, Soltanlı, Çaxmaxçay, Göyərçin-Veysəlli, Minbaşılı, Ağtəpə, Cəfərabad, Şahverdilər, Çaxmaxqaya, Dövlətyarlı, Diləgərdi, Kürdmahmudlu, Quruçay, Şahbulaq, Gülablı, Çobandağ, Boyəhmədli, Şahbulaq, Ağdam, Qarqarçay, Xaçınçay və s. yataqlarda aşkar edilmişdir: "Sözügedən yataqlarda sənaye ehtiyatları təsdiq edilmiş 132,6 ton qızıl, 37,3 min ton qurğuşun, 189 milyon m3 mişar daşı, 1 milyon 526 min ton gəc, 1 milyon 968 min m3/gün yeraltı şirin su, 18 milyon 432 min m3üzlük daşı, 23 milyon 243 min m3 gil, 57 milyon 965 min ton tikinti daşı, 7805 m3/gün mineral sular, 96 milyon 987 min ton qum-çınqıl, 1898, 4 ton civə, 4 milyon 473 min m3 perlit, 2 milyon 144 min m3 pemza, 129 milyon 833 min m3 soda istehsalı üçün əhəngdaşı, 147 milyon 108 min ton sement xammalı və s. iqtisadiyyatın inkişafında vacib əhəmiyyət daşıyan faydalı qazıntılar aşkar edilmişdir".

Ermənistanın təcavüzü nəticəsində Azərbaycanın bitki örtüyünə, meşələrinə amansız divan tutulmuşdur. Dağlıq Qarabağ və onun ətrafında 250.928 hektar meşə sahəsi, o cümlədən Zəngilan rayonundakı Bəsitçay və Laçın rayonundakı Qarabağ dövlət qoruqları, həmçinin dörd təbiət yasaqlığı, digər çoxsaylı təbiət abidələri amansızlıqla məhv edilmişdir. Ermənilər Azərbaycanın işğal edilən ərazilərində yanğınlar törətməklə ekoloji terror tədbirlərini daha da genişləndirmişlər. 2006, 2010, 2014, 2017 -ci illərdə yaz və yay aylarında törətdikləri yanğınlar zamanı Azərbaycan təbiətinə, flora və faunasına ağır zərbələr vurmuşlar. Meşələrin məhvi isə təkcə flora və faunanın məhvi demək deyil, eyni zamanda, regionun iqliminə neqativ təsir göstərən amillərdəndir.

Qlobal iqlim dəyişikliklərinin dünya üçün ciddi sınaq və təhlükəyə çevrildiyi bir zamanda Ermənistanın işğal edilmiş ərazilərdə meşələrə divan tutması bütövlükdə Cənubi Qafqaz regionunda bioloji müxtəlifliyin məhvinə, ekoloji tarazlığın pozulmasına yönəlib. Sərhəd zolağında törədilən geniş miqyaslı yanğın, işğal olunmuş ərazilərdə ağacların kütləvi qırılması ilə erməni vandalları Azərbaycana 4,5 milyon ABŞ dolları həcmində ziyan vurmuşlar. Ümumilikdə, işğal altında olmuş Azərbaycan ərazilərində meşələrin ümumi sahəsi 247,352 hektar olub. Bunun təxminən 460 növdən çox yabanı ağac və kol bitkisi olmaqla, 13,197 hektarı xüsusi əhəmiyyətə malik olub. Azərbaycan ordusunun parlaq Qələbəsi ilə torpaqlarımız azad edildikdən sonra məlum olub ki, Kəlbəcər rayonunda Beynəlxalq Təbiətin və Təbii Sərvətlərin Mühafizəsi Birliyinin (IUCN) qırmızı kitabına salınmış ağacların bitdiyi 968 hektarlıq ərazi məhv edilib. Məlumatlar istinadən qeyd etmək olar ki, Ermənistan işğalçıları Azərbaycan ərazilərində 21 növ endemi, həmçinin yüzlərlə nadir və nəsli kəsilməkdə olan bitki növünü məhv edib. Bəsitçay Dövlət Təbiət Qoruğunda, Qaragöl Dövlət Təbiət Qoruğunda, həmçinin Laçın, Qubadlı və Daşaltı regionlarındakı dövlət təbiət qoruqlarında çinar, qoz, palıd və s. nadir ağaclar kəsilib, işğal atındakı ərazilərdən daşınaraq mebel, çəllək və silah istehsalında istifadə edilib. Bu ağac növlərinin əksəriyyəti nəsli kəsilmək təhlükəsi ilə üzləşib.

Ümumiyyətlə, erməni gəmiriciləri işğal etdikləri Azərbaycanın dilbər guşələrini viran qoyub, təbiətə sarsıdıcı zərbə vurublar. Təbii ki, sərvətlərimizin talan edilməsi, təbiətin məhv edilməsi erməni toplumuna baha başa gələcək. Artıq Ermənistanın haqq divanına çəkilməsi üçün Azərbaycan yerli və xarici ekspertlərinin iştirakı ilə viran edilən ərazilərdə dəqiləşdirmələr və hesablamalar işi aparırlar. Yəni Ermənistan beynəlxalq məhkəmə qarşısına çıxarılmaqla layiq olduğu cəzanı və təzminatı ödəyəcək.

## Yaşıllıqların qorunmasında hər bir kəs vətəndaşlıq məsuliyyətini dərk etməlidir

Sevindirici və qürurverici haldır ki, artıq erməni işğalına son qoyulub. Güclü və qüdrətli Azərbaycan ordusunun keçirdiyi uğurlu hərbi əməliyyatlar nəticəsində Ermənistan təslimçilik aktını imzalamağa məcbur olub. 30 ilə yaxındır ki, düşmən tapdağı altında inildəyən, meşələri talan edilib, sərvətləri qarət olunan gözəl məkanımız aydınlığa çıxıb. O bölgələrə həyat qayıdıb. Artıq doğma yerlər doğma nəfəslə canlanmaqdadır. Missiyası və amacı ancaq və ancaq qurub-yaratmaq olan Azərbaycan dövləti, onun vətəndaşları işğaldan azad edilən Ağdam, Füzulu, Kəlbəcər, Zəngilan və digər ərazilərdə ağacəkmə aksiyalarına başlayıblar. Qısa müddət ərzində on mindən çox müxtəlif növ ağac əkilib. Bu xeyirxah və humanist işlər yaxın günlərdə daha geniş və əhatəli şəkildə həyata keçiriləcək. Daha doğrusu, insanlar öz doğma yurdyuvalarına qayıtdıqdan sonra böyük sürətlə ağac əkəcək, meşə zolaqları salacaq, park və xiyabanlar yaradacaqlar.Bununlada ətraf mühitin mühafizəsi istiqamətində əhəmiyyətli addımlar atmış olcaqlar. Hazırkı mərhələdə Azərbaycanda ətraf mühitin qorunması və sağlamlaşdırılması istiqamətində Ekologiya və Təbii Sərvətlər Nazirliyi, yerli bələdiyyələr mühüm rol oynayırlar. "Yaşıllıqların mühafizəsi haqqında" Azərbaycan Respublikası Qanununun 8-ci maddəsində yaşıllıqların mühafizəsi sahəsində bələdiyyələrin də vəzifələri müəyyən edilmişdir. Həmin qanuna görə, yaşıllıqların mühafizəsi sahəsində bələdiyyələrin vəzifələri aşağıdakılardır:

-Yaşıllıq ərazilərinin genişləndirilməsinə dair yerli proqramlar və normativ xarakterli aktlar qəbul etmək;

-Yaşıllıqların mühafizəsi ilə əlaqədar həyata keçirilən və planlaşdırılan işlər və ərazilər barədə əhalini mütəmadi olaraq məlumatlandırmaq;

-Mülkiyyətində olan torpaqlardakı yaşıllıqların uçotunu, kadastrını və monitorinqini aparmaq;

-Yaşıllıqların mühafizəsi məqsədi ilə bələdiyyə büdcəsindən ayrılmış vəsaitin təyinatı üzrə istifadə olunmasına nəzarəti həyata keçirmək;

Təəssüf hissi ilə vurğulamaq lazımdır ki, yerli bələdiyyələr ekoloji mühitin qorunmasında iştirak etsələr də, fəaliyyətləri bir o qədər qənaətbəxş deyil. Yəni bələdiyyələr vəzifə səlahiyyətlərinə uyğun ərazilər üzrə ağac əkmək, meşə zolaqları salmaq, ətraf mühiti qorumaq kimi əhəmiyyətli işləri həyata keçirməyə maraq göstərmirlər. Bələdiyyələr bəzən bunu büdcələrində yaşıllıqların salınması üçün lazımi maliyə vəsaitinin olması ilə əlaqələndirlər. Ancaq ekoloji mühitin qorunması üçün nəinki bələdiyyələr, o cümlədən hər bir kəs öz vətəndaşlıq məsuliyyətini dərk etməlidir. Çünki nəzərə almaq lazımdır ki, sağlamlığımız və yaşayışımız həm də təbiətlə sıx bağlıdır. Kimliyindən, tutduğu mövqeyindən asılı olmayaq bizlər canlı aləmin, ətraf mühitin qayğısına qalmalıyıq, onun inkişafına yardımçı olmalıyıq.

**İ.ƏLİYEV**

# Minsk qrupu həmsədrlərinin susan vicdanları...

## və yaxud həqiqətin gecikmiş etirafı

ABŞ-ın Dövlət Departamentində 30 il çalışandan sonra təqaüdə çıxan və sonra ATƏT-in Minsk qrupunun həmsədri kimi fəaliyyət göstərən Riçard Hoqland Beynəlxalq Münaqişələrin Həlli Mərkəzinin saytında dərc olunmuş yazısında Dağlıq Qarabağ münaqişəsi ilə bağlı qaranlıq məqamlara aydınlıq gətirib. Dəfələrlə qeyd olunduğu kimi, yarandığı gündən üzərinə düşən vəzifəni yerinə yetirməyən, bölgəyə turist səfərləri sayaq gəlişlərinin məqsədləri, nəticəsi bilinməyən Minsk qrupunun həmsədrləri olan Amerika Birləşmiş Ştatlarını, Rusiyanı, Fransanı təmsil edən nümayəndələri arada bir dişsiz, gülünc bəyanatlar verməklə guya "Qarabağ münaqişəsini həll edirdilər."




*ATƏT-in Minsk qrupunun "Lakin etiraf edirəm ki, çox az iş gördük" söyləyən amerikalı sabiq həmsədri Riçard Hoqlandın Dağlıq Qarabağ münaqişəsi ilə bağlı açıqlaması ədalətin yalan qarşısında gücsüzlüyünün ifadəsidir*

"Düzünü desəm, mənə Minsk qrupunda ABŞ-ı təmsil edəcək həmsədr vəzifəsi təklif olunanda bir qədər tərəddüd etdim. Niyə? Çünki Dövlət Departamentində bu vəzifə karyera inkişafında növbəti mərhələ sayılmırdı" sözləri ilə Minsk qrupunun səlahiyyətsiz format olduğunu, sadəcə vaxt uzatmaq üçün yaradıldığını bildirən amerikalı diplomat 30 il müddətində bölgəyə turist səfərlərinin mahiyyətinin, xəritəsinin dəyişilmədiyini də qeyd edir. Azərbaycan- Ermənistan- Xankəndi marşrutu ilə keçirilən, arada bir Moskvada, Brüsseldə davam etdirilən görüşlərdə müzakirələr " çevir tatı, vur tatı" effekti yaradırdı.

R.Hoqland həmsədrlərin "gərgin fəaliyyəti"nin gizli saxlanan məqamlarından belə bəhs edib: "Etiraf edirəm ki, gördüyümüz işlər və o işlərin yerinə yetirilmə forması haqqımızdakı stereotiplərə tam uyğun idi. Beşulduzlu otellərdə qalırdıq və orada bizə lüks apartamentlər ayrılırdı. Restoranlardan, bardan pulsuz istifadə edirdik. Olduğumuz şəhərlərdə həmişə ən yaxşı restoranları axtarırdıq. Bakı və İrəvanda ATƏT bayrağını göstərirdik, yaxşı yaşayırdıq. Lakin etiraf edirəm ki, çox az iş gördük".

Münaqişənin guya həllini nəzərdə tutan "Lavrov planı"nın da əsassız, Ermənistanın işğalçılıq siyasətinə dəstək olduğunu bildirən diplomatın

"Lavrov planı" açıqlananda rusiyalı həmsədr Popovdan soruşdum ki, Bakı və İrəvan güzəştlərə getsələr və planı qəbul etsələr, Kreml gerçəkdən də, planı reallaşdırmağa hazırdır? Onun açıq cavabı belə oldu: "Təbii ki, yox". Beləliklə, anladım ki, Qarabağ münaqişəsi sadəcə, Azərbaycanla Ermənistan arasındakı problem deyil. Bu münaqişə əslində üçtərəfli, Rusiyanın əhəmiyyətli, hətta bəlkə də həlledici rol oynadığı məsələdir. Rusiya münaqişə tərəfi olan ölkələri təsir dairəsində saxlamaq üçün münaqişənin tam həllində maraqlı deyil" sözləri gec də olsa gerçəkliyin, ikili siyasətin etirafıdır.

Səlahiyyətsiz qurum olduğunu fəaliyyətsizliyi ilə bildirən, sülh naminə heç bir təşəbbüs göstərməyən həmsədrlərin bölgəyə səfərlərinin turist gəzintisinə bənzədilməsi R.Hoqlandın açıqlamasında təsdiqlənir. Münaqişənin sülh yolu ilə həllində israrlı olan, Dağlıq Qarabağ həqiqətlərini bütün görüşlərdə Minsk qrupu həmsədrlərinin diqqətinə çatdıran Azərbaycanın təkliflərini bölgədən ayrılan kimi "unudan" təmsilçilər xəyallarında yeni qonaqlıqların, restoranların, barların siyahılarını hazırlayırdılar. Bölgəyə səfərləri zamanı başları erməni konyakından dumanlanan həmsədrlərin 30 ildə bir dəfə də olsun, ermənilərin Azərbaycan torpaqlarında törətdikləri vəhşilikləri, barbarlıqları, Xocalı soyqırımını pisləməmələri, Ermənistanın etnik təmizləmə siyasətinin qurbanı olan azərbaycanlı məcburi köçkünlərin taleyi ilə maraqlanmamaları həmsədr dövlətlərin münaqişənin həllinə göstərdikləri etinasızlıq idi. Bu adətlərinə sadiq qalan Minsk qrupunun həmsədrləri Ermənistanın 30 il davam edən işğalına son qoyan Azərbaycan Ordusunun 44 günlük haqq, ədalət savaşına münasibətlərini də susmaqla bildirdilər.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi məqsədilə təsis edilən ATƏT-in Minsk qrupuna etimadın azalması son illərdə daha açıq hiss olunurdu. Çünki həmsədr dövlətlərin məqsədləri münaqişəni öz maraqları, siyasətlərinə uyğun həll etmək, siyasi dividend qazanmaq idi. Cənubi Qafqazda strateji üstünlüyə malik olmaq naminə maraqlı tərəflər arasındakı siyasi oyunun ələbaxan hakimi rolunu oynayan Minsk qrupu həmsədrlərinin fəaliyyəti məşhur rus təmsilçisi İvan Krılovun təmsilindəki obrazların müxtəlif istiqamətlərə yönələn hərəkətlərinə bənzəyirdi: "Bir balıq, bir ördək, bir xərçəng. Bir zaman oldu üçü həmahəng." Bu günədək münaqişənin tam həll olunmadığını hesab edən həmsədrlər ABŞ və Fransanın məqsədi isə sonrakı prosesdə özləri üçün müəyyən status saxlamaqdır.

"Otuz il davam edən danışıqlar heç bir nəticə vermədi. Minsk qrupunun fəaliyyəti olsa da, nəticəsi sıfra bərabər oldu. Son iki il ərzində faktiki olaraq Minsk qrupunun həmsədrləri özləri də bilmirdilər ki, nə işlə məşğul olsunlar. Çünki Ermənistan baş nazirinin yersiz və çox təhlükəli bəyanatları onların fəaliyyətini də faktiki olaraq iflic etmişdi, mənasız etmişdi. Əgər Ermənistan baş naziri deyirsə ki, "Qarabağ Ermənistandır və nöqtə"", ondan sonra hansı proses ola bilər, hansı danışıqlardan söhbət gedə bilər? Bu, əslində, Minsk qrupunun həmsədrlərini də çox çətin vəziyyətə saldı. Çünki onlar da buna hər hansı bir reaksiya verməli idilər" söyləyən Prezident İlham Əliyev "Həmçinin Ermənistan baş nazirinin təəccüb doğuran bəyanatına toxunmaq istərdim. Bu bəyanat təkcə Azərbaycanda təəccüblə qarşılanmayıb, ona Rusiya Federasiyası tərəfindən də "Valday"" forumu çərçivəsində müvafiq cavab verilib. Beləliklə, bəyanat sözbəsöz belədir: "Qarabağ Ermənistanın bir hissəsidir və nöqtə"." Birincisi, yumşaq desək, bu, yalandır. Dünya tərəfindən həm Aran, həm də Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsi kimi tanınıb. Ermənistan özü də bu qanunsuz qurumu tanımır. Qarabağ tarixi, əzəli Azərbaycan torpağıdır. Beləliklə, Qarabağ Azərbaycandır və nida işarəsi" sözləri ilə unutduqları səlahiyyətlərini Minsk qrupu həmsədrlərinə bir daha xatırlatdı.

Nəticədə etimadı itirən bu qurumun fəaliyyətsizliyi problemin sülh yolu ilə deyil, hərbi əməliyyatlarla həllinə gətirib çıxardı. Maraqlı tərəflərin müəmmalı "Nə hərb , nə sülh" tezisinə son qoyan, Ermənistanın təxribatlarının qarşısını alan Azərbaycan Ordusu 2020-ci il sentyabrın 27-də əks-hücum əməliyyatına başlayaraq, işğal altındakı torpaqlarını azad etdi. 44 gün davam edən İkinci Qarabağ savaşı ilə 30 illik işğala son qoyan Prezident, Ali Baş Komandan İlham Əliyev BMT Təhlükəsizlik Şurasının qətnamələrini, Minsk qrupunun vəzifələrini noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanatla yerinə yetirdi.

Rusiyanın "Zvezda"" və "Bolşaya Aziya"" mediaholdinqlərini təmsil edən jurnalistin dövlət başçımıza müraciətlə söylədiyi "Siz bütün dünyanın gözü qarşısında nadir presedent yaratdınız. Çünki Siz Qarabağ müharibəsi zamanı mütləq mənada sülhməramlı kimi çıxış etdiniz. Siz 23 dəfə sülh haqqında danışdınız, halbuki digər tərəf bir dəfə də olsun, bu cür bəyanat vermədi" sözləri Prezident İlham Əliyevin münaqişənin sülh yolu ilə həlli naminə göstərdiyi siyasi iradəyə inam, etimad idi. Hamını düşündürən "Minsk qrupunun fəaliyyətinə ehtiyac varmı?" sualının cavabını bölgədə yaranan yeni reallıqların tələbləri müəyyənləşdirəcək. Rus şairi E. Krotkinin yazdığı kimi, haqlı olmaq azdır, vaxtında haqlı olmaq lazımdır. Gecikmiş etiraf çayda suyun eyni yerdən təkrar axmamasına bənzəyir.

***Xuraman İsmayılqızı***

# İtaliya mətbuatı Azərbaycanın işğaldan azad edilmiş ərazilərində mina təhlükəsinə dair məqalələr yayıb




***İtaliyanın "Politicamente Corretto", "Askanews", "Agenzia Nova", "Yahoo Notizie", "KmetroO" kimi kütləvi informasiya vasitələrində Azərbaycanın işğaldan azad olunmuş ərazilərində mina təhlükəsi barədə məqalələr dərc edilib.***

AZƏRTAC xəbər verir ki, məqalələrdə Beynəlxalq Mina Xəbərdarlığı və Minalara Qarşı Mübarizə Günü münasibətilə ADA Universitetində təşkil olunmuş tədbirdə səsləndirilmiş fikirlərə geniş yer verilib.

Qeyd olunub ki, Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət şöbəsinin müdiri Hikmət Hacıyev tədbirdə çıxış edərək, Ermənistanın Azərbaycan ərazilərində basdırdığı minaların mülki əhalinin təhlükəsizliyi, sağlamlığı və həyatı üçün ciddi bir təhlükə yaratdığını, eləcə də sosial-iqtisadi inkişafa mane olduğunu vurğulayıb.

H. Hacıyev bildirib ki, ölkələr tərəfindən minalara qarşı mübarizə şəraitinin yaradılması və səylərin inkişaf etdirilməsi məsələsi çox vacib əhəmiyyət kəsb edir. Bu, xüsusən də minalardan zərər çəkmiş ölkələrə aiddir. Təəssüf ki, Azərbaycan minalardan zərər çəkmiş ölkələr kateqoriyasına daxildir. Həmçinin vurğulanıb ki, hərbi əməliyyatlar zamanı və ya hərbi vəziyyətlərdə mülki şəxslər hədəfə alınmamalıdır.

Prezidentin köməkçisi, eyni zamanda, vurğulayıb ki, azad olunmuş ərazilərində qalan hər bir mina Ermənistan tərəfindən Azərbaycan vətəndaşlarına və mülki əhaliyə təhdid təşkil edir.

Hikmət Hacıyev xüsusi qeyd edib ki, minaların yaratdığı əlillik ağır fəsadlarla müşayiət olunur, qurbanlar, onların ailələri və ümumilikdə cəmiyyətin rifahına mənfi təsir göstərir. Minaların qurbanları ölçüyəgəlməz dərəcədə fiziki ağrı, psixoloji və emosional zədə alırlar. Piyada əleyhinə minalar Ermənistan tərəfindən məqsədyönlü qisas strategiyasının bir hissəsi kimi mülki əhalini terrora məruz qoymaq və təxminən 30 ildən bəri davam edən etnik təmizləmə siyasətinin nəticələrini aradan qaldırılmasını əngəlləmək üçün istifadə olunur.

Ermənistanın minalanmış ərazilərin xəritələrini təhvil verməməsi məsələsinə də toxunan Prezidentin köməkçisi diqqətə çatdırıb ki, Ermənistanın xəritələri verməkdən imtina etməsi də iki ölkə arasında sülh və etimadın yaranmasına mənfi təsir göstərir, ölkələr arasında, eyni zamanda, bölgədəki sabitliyi və əmin-amanlığı əngəlləyir. İşğaldan azad edilmiş ərazilərə səpələnmiş minalar sosial-iqtisadi inkişafa mane olur və 2030-cu ilədək davamlı inkişaf proqramı çərçivəsində Azərbaycanın hədəflərinə çatmaq üçün ciddi maneə törədir. Hazırda Azərbaycanın azad edilmiş ərazilərini minalardan və digər partlayıcı qurğulardan təmizləmək Azərbaycan hökumətinin əsas prioritetlərindən biridir.

Sonda Hikmət Hacıyev diqqətə çatdırıb ki, minaların basdırılması çətin olmasa da, onların çıxarılması son dərəcə ləng, təhlükəli və bahalı bir işdir. Minaların təmizlənməsi Azərbaycan hökumətinin prioritetlərindən biri kimi müəyyən edilib.

# Paşinyan Putindən nə istədi?

## *AES, Doza, Hərbi əməkdaşlıq...*



***Ermənistanın baş naziri Nikol Paşinyan Rusiya prezidenti Vladimir Putinlə görüşündə söhbətə hərbi əsirlərlə başlayıb, sonra isə İrəvanda yazdıqlarını bir-bir Kremlin sahibindən xahiş edib. SİA xəbər verir ki, onun istədiyi ilk şey Ermənistanda yeni atom elektrik stansiyası tikmək imkanlarını nəzərdən keçirməkdir.***






"Ümid edirəm ki, bu gün strateji investisiyalarla əlaqəli bəzi məsələləri müzakirə edəcəyik və bu mənada bu gün sizinlə Ermənistan Respublikasında yeni bir atom elektrik stansiyası tikmək imkanlarını müzakirə etmək istəyirəm". Paşinyan danışıqların əvvəlində belə deyib. Ermənistanın Ərazi İdarəetmə və İnfrastruktur naziri Suren Papikyan mövzu ilə bağlı bir müddət öncə Ermənistanın 2040-cı ilədək enerji sektorunun inkişafı üçün strateji proqramın əsas məqsədinin uzunmüddətli hədəflərə uyğun olaraq yeni bir atom elektrik stansiyasının inşası olduğunu bildirmişdi.

Qeyd edək ki, Ermənistanın AES-i Cənubi Qafqazdakı yeganə atom elektrik stansiyasıdır və Ermənistanda istehsal olunan elektrik enerjisinin üçdə birindən çoxunu istehsal edir. Rusiya və Ermənistanın nüvə enerjisi sahəsindəki əsas layihəsi, Ermənistan AES-in ikinci enerji blokunun modernləşdirilməsi və istismar müddətinin uzadılması layihəsidir.

Paşinyanın ikinici istədiyi şey bir milyondan çox "Sputnik V" peyvəndi olub. O, xatırladıb ki, Ermənistan onsuz da təxminən 15 min doza qəbul edib, sabah bu partiya respublikaya gələcək. "Bu, Rus peyvəndinin simvolik bir partiyasıdır. Effektivliyini sübut etdi". Respublika hökumətinin başçısı belə deyib. Rusiya lideri rus peyvəndinin artıq Ermənistanda qeydiyyata alınıb-alınmadığını soruşub və Paşinyan müsbət cavab verib.

Ermənistan baş nazirinin sözlərinə görə, Rusiya indi də dərmana böyük ehtiyacın olduğunu başa düşür. Bununla əlaqədar olaraq Putin, peyvənd istehsalının indi "sürətləndiyini" qeyd edib və söhbət kifayət qədər böyük bir həcmdən gedir. Onun sözlərinə görə, istehsal həcmi ümumiyyətlə ölkə daxilindəki tələb ilə müqayisə oluna bilər. Rusiya dövlətinin başçısı məsələnin həll olunacağına əmindir.

Xatırladaq ki, peyvənd Qamaley adına Mərkəz tərəfindən istehsal olunur. Bu peyvənd dünyada qeydə alınan ilk koronavirus peyvəndidir. Artıq 50-dən çox ölkədə təsdiq edilib. Bu ölkələrin ümumi əhalisi 1,5 milyard nəfəri ötür.

Ermənistanın Baş naziri Nikol Paşinyan Rusiya prezidenti Vladimir Putinlə Rusiya-Ermənistan ortaq hərbi qüvvələr qrupunun fəaliyyətinin "bəzi nüanslarını" da müzakirə edib. Bu çərçivədə, Ermənistan baş naziri bölgədəki kollektiv hava hücumundan bəhs edib. Bununla da Paşinyan Putindən daha bir şey istədiyini dilə gətirib.

"Ümid edirəm ki, bu gün Rusiya-Ermənistan birləşmiş qüvvələr qrupunun fəaliyyətindəki bəzi nüansları da müzakirə edəcəyik. Hazırda vahid regional hava hücumundan müdafiə sistemimiz də var". Paşinyan qeyd edib. Bundan əvvəl, Ermənistan hökumətinin başçısı regional təhdidlərə qarşı birləşmiş qruplaşmanı gücləndirməyin lazım olduğunu bildirmişdi.

Xatırladaq ki, Ermənistan və Rusiya qoşunlarının vahid qruplaşması 2016-cı ildə yaradılıb. Qruplaşmanın əsas vəzifələri arasında Ermənistana və Rusiyaya qarşı birbaşa silahlı hücumun qarşısını almaq və dəf etməkdir.

Bütün bunların Paşinyanın dili ilə Moskvada səslənməsi heç də onların hamısının həyata keçəcəyindən xəbər vermir. Xatırlayırsınızsa, Paşinyanın Putinlə son görüşündə ölkə ictimaiyyəti üçün nəzərdə tutulan "Azərbaycanda olan hərbi əsirlərin hamısı geri qaytarılmalıdır" açıqlaması elə deyildiyi kimi havada qaldı. Rəsmi Bakı isə "Bütün hərbi əsirlər geri qaytarılıb" bəyanatı ilə söhbətə son qoydu.

---

## Azərbaycan vətəndaşı Almaniyadan ekstradisiya edilərək ölkəmizə gətirilib



***Ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə cinayətkarlığın qarşısının alınması üzrə qəti tədbirlər görülərək bu sahədə beynəlxalq əməkdaşlığa mühüm əhəmiyyət verilir. Müxtəlif dövlətlərlə ikitərəfli sazişlər və müqavilələr, Avropa, habelə MDB çərçivəsində çoxtərəfli konvensiyalar üzrə ekstradisiya və digər sahələrdə səmərəli qarşılıqlı fəaliyyət həyata keçirilir.***

"İki sahil" xəbər verir ki, Ədliyyə Nazirliyi tərəfindən qlobal pandemiya əlaqədar ekstradisiya sorğularının elektron qaydada qəbul olunması və baxılması təmin edilir.

Ötən il beynəlxalq axtarışda olan adam oğurluğu, dələduzluq və rəsmi sənədlərin saxtalaşdırılması kimi cinayət əməllərində təqsirləndirilən şəxslərin Almaniya, Bosniya və Herseqovina, Türkiyə, Əlcəzair və s. dövlətlərdən ölkəmizə ekstradisiyasına nail olunub.

Bu gün isə xarici dövlətlərdə qeyri-qanuni fəaliyyətlə məşğul olan müxtəlif şəxslər üçün qanunsuz yollarla siyasi sığınacaq əldə etmək məqsədilə həmin ölkələrin dövlət qurumlarını aldatmaqla rəsmi sənədlərin saxtalaşdırılması kimi cinayət əməllərində təqsirləndirilən Azərbaycan vətəndaşının Almaniyadan ekstradisiyası təmin edilmiş, və o, nazirliyin əməkdaşlarının müşayiəti ilə ölkəmizə gətirilib.

Cinayətkar şəxslər Azərbaycana gətirilərkən tranzit dövlətlərin razılığının alınması üçün nazirlik tərəfindən qısa müddətdə zəruri tədbirlər görülür. Bu baxımdan qardaş Türkiyənin ölkəmizə böyük dəstəyi xüsusi qeyd olunmalıdır.

Ümumilikdə ötən 5 il ərzində 200 nəfərdən çox cinayətkar şəxslərin Azərbaycana ekstradisiyası təmin olunub.

Bununla da cəzanın labüdlüyü prinsipi təmin edilməklə cinayətkarların özlərini heç yerdə azad və təhlükəsizlikdə hiss etmələrinin qarşısı alınır.

Nazirlik tərəfindən bu sahədə lazımı tədbirlər bundan sonra da davam etdiriləcəkdir.

## Ermənistan Oxçuçayı belə çirkləndirir

***Ermənistan Zəngilan rayonu ərazisindən keçərək Araz çayına tökülən Oxçuçayı çirkləndirməkdə davam edir. SİA-nın məlumatına görə, bunu jurnalistlərə açıqlamasında Ekologiya və Təbii Sərvətlər Nazirliyinin nümayəndəsi Mehman Nəbiyev bildirib.***



Onun sözlərinə görə, bu ilin üç ayı ərzində aparılan monitorinqlərə görə, Oxçuçayda nikkel, dəmir və mis-molibdenin normadan dəfələrlə artıq olması aşkarlanıb: "Mənbəyini Zəngəzur dağ silsiləsindən götürən Oxçuçay Zəngilan rayonu ərazisindən keçərək Araz çayına qovuşur. Bu çayın mənbəyində yerləşən Kacaran mis-molibden saflaşdırma kombinatının tullantıları, eyni zamanda, məişət çirkab suları təmizlənmədən Oxçuçaya axıdılır. Bu da həmin çayda ağır metalların normadan artıq olmasına səbəb olur. ETSN tərəfindən çaylarda aparılan monitorinqlər göstərir ki, bu çayın çirklənməsi digər sərhəd çaylardan daha çoxdur. Yanvar, fevral, mart aylarında aparılan monitorinqlərə görə, bu çaylarda nikkelin miqdarı 7 dəfə, dəmir 4 dəfə, mis-molibden isə iki dəfə normadan artıq aşkarlanıb".

ekspert bildirib ki, martın əvvəllərində Oxçuçayın vizual olaraq da çox çirklənməsi qeydə alınıb: "Həmin günlərdə çay hövzəsində bioresursların, xüsusilə, qiymətli növ olan farel balıqlarının kütləvi məhv olunması aşkarlanıb. Hazırda da çayın çirklənməsi davam edir. Kacaran və Qafan yataqlarının istehsal gücünün artırılması çayın dəfələrlə çirklənməsini artırıb. Belə transsərhəd çirklənmə hövzənin çirklənməsinə gətirib çıxarır ki, bu da çayın bioresursları və ekosisteminə ciddi təhdid yaradır".

# “İskəndər” Rusiyanındır - bəs onun düyməsini kim basıb?

*İkinci Qarabağ müharibəsi Ermənistan ordusu və hərbi texnikası ilə bağlı bir çox məqamların da üzərinə işıq saldı. SSRİ-nin dağılmasının son illərindən müstəqilliyi bərpa olunana və ondan sonra ta indiyədək Ermənistan ordusu xaric dövlətlərin hesabına hərbi texnika və avadanlığa sahib olur. Sentyabrın 27-dən noyabrın 10-dək gedən döyüşlər zamanı Ermənistanın istifadə etdiyi “ianə edilən” hərbi texnikanın keyfiyyəti də ortaya çıxdı. Ermənistan hərbçilərinin Azərbaycanın mülki obyektlərinə atdığı raketlərlə bağlı məsələ hələ də müzakirə edilir.*







Aprelin 2-də Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin (ANAMA) Operativ Qərargahının rəisi İdris İsmayılov bildirib ki, Şuşada “İskəndər-M” raketinin qalıqları aşkar olunub. Onun sözlərinə görə, raketlərin Ermənistanın hansı istiqamətindən atıldığını xüsusi radar vasitəsilə müəyyənləşdirmək olur: “Bizdə raketin atıldığı istiqamət və tarix barədə həzırda məlumat yoxdur”. Rusiya iddia edir ki, Ermənistana bu raketin atılması üçün “açar” verilməyib, yaxud onlara bu silahdan verməyib. Ancaq fakt faktlığında qalır: Azərbaycan ərazisinə “İskəndər-M” raketi atılıb. Ermənistanın baş naziri Nikol Paşinyan iddia edib ki, Azərbaycan ərazisinə atılan bu raketlərin 10 faizi partlamayıb. Hərbçiləri isə onu təkzib edirlər. Nə baş verir: Ermənistan ordusunda belə silahları kim atır? İdris İsmayılov bildirib ki, qırıntılar bir-birindən 780 metr məsafədə olub. Onun sözlərinə görə, raketin nişan nömrəsinin (9M723) yoxlanılmasının gedişatında müəyyən edilib ki, qalıqlar “İskəndər” raket kompleksinə aiddir. Ermənistan Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Artak Davtyan isə bu xəbərləri şərh etməkdən imtina edib: “Heç nə deyə bilmirəm, çünki informasiya açıqlana bilməz”.



Yeri gəlmişkən, Kremlin nümayəndəsi Dmitri Peskov bu məsələni şərh edərək bildirib ki, Qarabağ münaqişəsində “İskəndər” raket kompleksləri tətbiq edilməyib: “Mənim bildiyimə görə, bu, yeni informasiyadır”. Sözçüdən “İskəndər” raketinin atıldığı yer barədə soruşublar. O, cavabında deyib: “Yox, biz bu barədə informasiyaya malik deyilik”. Göründüyü kimi, Peskovun cavabları çox primitivdir, inandırıcı deyil. Ermənistanda bütün məsələlərdən xəbərdar olan Rusiyanın “İskəndər”in atıldığı yeri bilməməsinə inanmaq sadəlövhlükdür. Rusiya Müdafiə Nazirliyinin məsələ ilə bağlı bəyanatında bildirilib: “Bizdəki təsdiq edilmiş obyektiv və səhih məlumatlara görə, Dağlıq Qarabağda münaqişənin gedişatında bu tip raket komplekslərinin heç biri tətbiq edilmirdi”.

Bu ilin fevralında Rusiya hərbçiləri bildirmişdi ki, raketlərin bütün döyüş sursatı Ermənistan Silahlı Qüvvələrinin anbarındadır. Dağlıq Qarabağda olmuş ukraynalı mütəxəssis Roman Boçkala isə qeyd edib ki, aşkar edilmiş raketlər böyük qalmaqal yarada bilər: “Axı Şuşaya atılan raket Rusiyanın əl işinə oxşayır”. Raketin atıldığını erməni rəsmiləri və müxalifət liderləri də təsdiqləyiblər. Ermənistanın baş naziri Nikol Paşinyan həmin vaxt bildirib ki, Dağlıq Qarabağda döyüş əməliyyatlarının gedişatında “İskəndər” raketləri partlamayıb və ya atılan raketlərin yalnız 10 faizi partlayıb. Serj Sarkisyan isə raketin gec atılmasından şikayətlənib.

Rusiya rəsmiləri iddiaları təkzib etdiyindən belə bir sual yaranır: Rusiyadan Ermənistana silah qaçaqmalçılığı edilir? Keçmiş SSRİ düşdüyü iqtisadi böhrandan çıxmaq üçün malik olduğu adi silahları dəyər-dəyməzinə satırdı. Bu proses Boris Yeltsinin prezidentliyi illərində də davam etdi. O vaxtkı baş nazir Yeqor Qaydarın komandası silah alveri ilə məşğul olurdu. Belə çıxır, Rusiyada bu ənənə hakimiyyətdən kənar qüvvələr vasitəsilə həyat keçir. Bu yaxınlarda Moskva vilayətinin Mıtişin rayonunda 61 yaşlı sahibkar Vladimir Bardanovun evindən qanunsuz silah arsenalı aşkar edilib. O, Baş Kəşfiyyat İdarəsinin əməkdaşlarına silahlı müqavimət göstərərkən zərərsizləşdirilib. Hadisə ilə bağlı araşdırma aparılır. İlkin versiyaya görə, belə demək olar ki, sahibkar qanunsuz silah alveri ilə məşğul olub və s.

Bir neçə il əvvəl Rusiyadakı silah qaçaqmalçılarının bir əli Ermənistanda görünüb. Rusiya sülhməramlılarının nəzarəti altında olan Azərbaycanın Xankəndi şəhərində “vəzifəyə” təyin edilən Samvel Babayan (“Syamo”) məşhur silah qaçaqmalçısıdır. O, 2017-ci ilin martında qeyri-qanuni silah, döyüş sursatları, partlayıcı maddə və qurğu əldə edilməsi, saxlanması, satışı, nəqli və ya daşınması, eləcə də ilkin sövdələşmə əsasında bir qrup şəxs tərəfindən törədilən qaçaqmalçılıq maddəsi üzrə ittiham olunub. “Syamo”nun adı 2017-ci ildə başqa bir cinayət işində hallanıb. Həmin il Babayan və daha iki şəxs Rusiya istehsalı olan “İqla” zenit-raket kompleksinin qaçaqmalçılığına görə mühakimə olunub. İstintaq araşdırması nəticəsində məlum olub ki, zenit-raket kompleksini Ermənistana gətirən şəxslər Babayanla əlbir olub, onun sifarişi ilə hərəkət ediblər. Bu əməlinə görə ona 6 il iş kəsiblər. Hadisə qonşu Gürcüstanda da ciddi şəkildə nəzarət altında saxlanılmışdı. Bu ölkənin Daxili İşlər Nazirliyinin Mütəşəkkil Cinayətkarlığa Qarşı Mübarizə Baş İdarəsinin əməkdaşları Ermənistana qanunsuz yolla “İqla” zenit-raket kompleksinin keçirilməsi işi üzrə axtarışda olan 40 yaşlı Ermənistan vətəndaşı Robert A.-nı tutmuşdu. İnformasiyaya əsasən, kompleksi Ermənistanın 3 vətəndaşı Gürcüstan ərazisindən qaçaq yolla keçirmək istəyibmişlər.

Britaniyalı müəllif, ekspert Harold Keyn “Narko Qarabağ” (“Narco Karabakh”) adlı kitabında da ermənilərin silah qaçaqmalçılığından bəhs edib. Kitabda Ermənistanın Rusiyadan silah almağa davam etməsi və “Moskvanın strateji peyki”nə çevrildiyi vurğulanıb. Müəllif bildirib ki, Dağlıq Qarabağ münaqişəsinə görə başqa ölkələrin Ermənistana silah satışına embarqo tətbiq etdiyi bir vaxtda Rusiya silah tədarüklərinə davam edib. Məsələn, 2005-ci ildə ABŞ-ın hüquq-mühafizə orqanları Artur Solomonyanı və bir qrup şəxsi Yerevandan Rusiya istehsalı olan qumbaraatanlar, “Stinger” raketləri, “AK-47” avtomatları və minalarını ABŞ-a qaçaq yolla gətirdiklərinə görə həbs etmişdilər. Belə ki, Federal Təhlükəsizlik Bürosu tərəfindən irəli sürülən ittihama görə Solomonyan Çeçenistanda rus hərbçilərindən satın alınaraq Ermənistana gətirilən silahlardan olan 200 qumbaraatanı qanunsuz yolla ABŞ-da satmaq istəyirmiş.

Ötən il Ermənistanın baş naziri Nikol Paşinyanın da adı silah, siqaret, brilyant qaçaqmalçılığında hallanıb. Ermənistanın Vatikandakı keçmiş səfiri, hazırda Moskvada olduğu iddia edilən Mikael Minasyan bildirib: “Nikol Paşinyan siqaret və brilyant qaçaqmalçılığı ilə bağlı qalmaqaldan sonra Ermənistanı beynəlxalq silah ticarətinin qara bazarına cəlb edib. Ermənistan Rusiyadan daxili bazar qiymətlərinə silah-sursat almaq hüququna malikdir. Ermənistan Respublikası və Rusiya ordusu federasiya istehsalçılarından silah və döyüş sursatlarını eyni qiymətlərə ala bilər. Bu qiymətlər beynəlxalq qiymətlərdən 65 faizə qədər fərqlənir”. O deyib ki, N.Paşinyan bu işi David Qalstyana həvalə edib: “Nikol Paşinyan ona Müdafiə Nazirliyi vasitəsilə Ermənistan Respublikası adından şərti olaraq 100 növ silah sifariş vermək imtiyazını verir. Bunun 60 növünün pulunu Ermənistan ofşor təşkilatlarda ödəyir, 40 növünü isə Rusiyadan birbaşa üçüncü ölkəyə, məsələn, Birləşmiş Ərəb Əmirliklərinə göndərir. Oradan da silahlar 4-cü ölkədə meydana çıxa bilər”.

Aprelin 6-da Rusiyanın Ural regional operativ gömrüyünün əməkdaşlarının Ermənistana tankın ehtiyat hissələrinin göndərilməsinə cəhdin qarşısını alması barədə məlumat yayılıb. Bildirilib ki, hərbi təyinatlı 8L026P tezlikli, 30 polarizə edilmiş RP-5 relesi olan 37 stabilizator tankın idarə edilməsində istifadə olunur. Stabilizatoru Uralın cənubundan olan, Çelyabinsk vilayətinin sakini göndərib. Məlumata görə, bu stabilizatorlar hərbi texnikalarda, o cümlədən “T-72” markalı tanklarda istifadə olunur. Fakt üzrə cinayət işi başlayıb.

Rusiya rəsmilərinin “İskəndər”lə bağlı təkziblərinə əsasən ehtimal etmək olar ki, bu raketlərin satışı və mühafizəsində boşluq var. Rusiyadakı silah qaçaqmalçılığı, Ermənistan vətəndaşlarının onlarla əlaqələri “İskəndər”in qanunsuz olaraq ələ keçirildiyini deməyə əsas verir. O zaman bir sual doğur: Atılan raket nüvə başlıqlı olsaydı, məsuliyyəti üzərinə kim götürəcəkdi?

**Sədrəddin İsmayılov**

# Tarixin təkrarlanan gerçəklikləri

## Təcavüzkar erməni millətçiləri tərəfindən törədilən Ağdaban soyqırımından 29 il ötür

***Soyqırım, genosid bütün əhali qruplarının, etnosların, irqi, milli, etnik, yaxud dini əlamətlərinə görə tamamilə və qismən məhv edilməsi deməkdir. Azərbaycan xalqı ermənilər tərəfindən bütöv bir əsr boyu bu cür soyqırıma məruz qalmış bir xalq olmuşdur. Ermənilərin Azərbaycan torpaqlarında törətdiklər terrorçuluq, işğalçılıq, soyqırımı bunu təsdiqləyir. Tarixə diqqət etsək görərik ki, iki yüz ilə yaxın bir dövrdə təcavüzkar erməni millətçiləri tərəfindən xalqımıza qarşı yeridilən soyqırımı siyasətinin acı nəticələrini yaşamışıq. Azərbaycanlıları tarixi torpaqlarından qovmaq, xarici havadarlarının köməyi ilə həmin yerlərdə Ermənistan dövləti yaratmaq məqsədi ilə ideyalarının reallaşdırmağa can atıblar.***



Ardıcıl olaraq hərbi, ideoloji və təşkilati xarakterli tədbirlər həyata keçiriblər. Yaxın tariximiz olan 44 günlük Vətən müharibəsi dövründə dinc insanlara, mülki əhaliyə qarşı etdikləri əməllər, işğaldan azad olan torpaqlarımızı tərk edərkən törətdikləri yanğınlar erməninin faşist ideologiyasının təzahürüdür. Ermənistanın ötən əsrin 90-cı illərində olduğu kimi, Vətən müharibəsində də törətdikləri terrorçuluq dünyanın nüfuzlu nəşrlərində və sosial şəbəkələrdə yer aldı. Müxtəlif ölkələrdən müharibədə iştirak üçün Qarabağa gəlmiş döyüşçülərin öz dilindən xeyli informasiyalar dünya mətbuatında işıqlandırıldı. Ən dəhşətlisi gecə yatmış insanlara qarşı belə cinayətin törədilməsi zamanımızın qaniçənliyidir, bu insanlar yer üzünün lənətlənmişləridir. Azyaşlıya qıyan, onu yetim qoyan, insanları şikəst, kor edən, əlil edən, bir ailənin faciəsini müəllifi olan bir "xalq"a hansı adı verək olar?!

Vətən müharibəsində ermənilərin cəbhə zonasından kənarda yerləşən, Azərbaycan Respublikasının ikinci böyük şəhəri olan Gəncənin mərkəzi hissəsində yerləşən çoxmənzilli yaşayış binalarını raket atəşinə tutması onların çirkin niyyətlərini göz önündə canlandırdı. Uşaq, qoca terrora məruz qaldı. Elə Bərdə də yaşanılan hadisələr də ermənilərin faşist əməllrini təsdiqlədi. Beynəlxalq konvensiyalara zidd topladığı silahlarla Gəncə, Tərtər, Mingəçevir kimi yerlərdə də mülki əhalinin kompakt yaşadığı ərazilərdə raket zərbələri endirməsi, Ermənistan hökumətinin təcavüzkar, terrorçu simasını ortaya qoymuş oldu.

### 8 NƏFƏR 90-100 YAŞLI QOCA, 2 NƏFƏR AZYAŞLI UŞAQ, 7 NƏFƏR QADIN DİRİ-DİRİ ODDA YANDIRILMIŞ...

Bu gün Qarabağ savaşının ən dəhşətli faciələrindən biri olan Ağdaban soyqırımından 29 il ötür. 1992-ci ilin aprel ayının 8-də baş verən Ağdaban soyqırımı tarixdə bəşəriyyətə qarşı törədilmiş ən böyük cinayətlərdən biridir. Azərbaycanın gözəl guşəsi Qarabağın qala qapısı Kəlbəcəri ələ keçirmək üçün erməni seperatçılarının "Böyük Ermənistan" yaratmaq xülyasıyla Azərbaycan xalqına qarşı törətdiyi dəhşətli soyqırımdır. Ağdaban soyqırımı zamanı bütöv bir kənd tamamilə yandırılmış, yüzlərlə dinc sakinə qeyri-insani işgəncələr verilmiş və yurdundan didərgin salınmışdır. Faciə baş verən zaman səhərə yaxın erməni quldurları Ağdaban yalında keşik çəkən 3 nəfəri qətlə yetiriblər. Onlar kəndin üst yanındakı bənd-bərələrə dolub, səhər saat 6-da silahlarla nərilti qoparmağa başlayıblar. Qəfil yuxudan oyanan kənd camaatı özünü itirib. Erməni qarətçiləri planlı surətdə hərəkət ediblər. Belə bir vəziyyətdə aprelin 8-də Ağdərə rayonunun Capar kəndi istiqamətindən Dədə Şəmşirin kəndi Çayqovuşan və Ağdaban kəndlərinə erməni quzğunları hücum ediblər. Erməni quldurları tərəfindən kənd sakinləri amansızcasına öldürülüb, kənd evlərinin əksəriyyəti yandırılıb və qarət edilib. Aşıq Şəmşirin evi və zəngin arxivinə od vurularaq, külə döndərilib. Ağdaban faciəsi Kəlbəcərin qəm dastanının ən kədərli səhifəsini açıb.

Faciə zamanı 130 evdən ibarət Ağdaban kəndi tamamilə erməni separatçıları tərəfindən yandırılmış, kəndin 779 nəfər dinc sakininə qeyri-insani işgəncələr verilmişdir. 67 nəfər qətlə yetirilmiş, 8 nəfər 90-100 yaşlı qoca, 2 nəfər azyaşlı uşaq, 7 nəfər qadın diri-diri odda yandırılmış, 2 nəfər itkin düşmüş, 12 nəfərə ağır bədən xəsarəti yetirilmişdir. İstər hərb qanunlarına, istərsə də bütün dünyada qəbul olunmuş insan hüquq və azadlıqlarına sığmayacaq səviyyədə soyqırımına "imza atan" erməni qəsbkarları qırğın zamanı Kəlbəcər rayonunun bu dilbər guşəsində, eyni zamanda, bütün tarixi abidələri, qaynaqları da məhv ediblər.

### BEYNƏLXALQ HÜQUQUN TƏLƏB VƏ TƏKİDLƏRİNƏ MƏHƏL QOYMAYAN ERMƏNİSTAN MƏĞLUB EDİLDİ

Ağdaban qırğınının səhəri günü - aprel ayının 9-da camaat hər yerdən gəlib rayon mərkəzinə toplaşıb. Xalqın iradəsi ilə "Kəlbəcərin müdafiəsi üçün fövqəladə yardım komitəsi" yaradılıb. Komitə, qısa müddət ərzində, böyük tədbirlər həyata keçirib. Orduya kömək xeyli artırılıb. Əhalidə müdafiə olunacağına ümid yaranıb. Rayon əhalisinin ciddi təkidi ilə Kəlbəcərə göndərilən polkovnik Zaur Rzayev briqada komandiri və hərbi komendant təyin edilib. Bu tədbirlər camaatın qırılmaqda olan inamını xeyli möhkəmləndirib. Ermənistan Respublikası "Hərbi münaqişələr zamanı mədəni sərvətlərin qorunması haqqında" Haaqa Konvensiyasının və "Mədəni Sərvətlərin qeyri-qanuni dövriyyəsi haqqında" Paris Konvensiyasının müddəalarını kobudcasına pozaraq, Azərbaycanın mədəni sərvətlərini talamışdır. Onu da qeyd edək ki, 1993-cü il mart ayının 27-də erməni fitnəkarları yenə də Kəlbəcərə hücumu Ağdabandan başlayıb. Ermənilər Ağdaban kəndinə hücum edib və onu ikinci dəfə viran ediblər. Bu gün işğal altında olan şəhər, kənd və qəsəbələrimizin Azərbaycan ordusu tərəfindən azad olundu. Sentyabrın 27-də Ermənistan ordusunun təxribatlarına qarşı Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə başlayan genişmiqyaslı Vətən müharibəsi qələbəmizlə sona çatdı. 30 ilə yaxın bir zamanda beynəlxalq hüququn tələb və təkidlərinə məhəl qoymayan Ermənistan məğlub edildi. Bu gün Azərbaycan xalqı öz torpaqlarını işğaldan azad edib və dağıdılan mədəniyyət abidələrimiz, viran qoyulan ərazilərimiz tezliklə bərpa olunacaqdır. Azərbaycana qarşı işğalçılıq siyasətini davam etdirməsinə baxmayaraq, Ali Baş komandanın siyasi iradəsi, dövlətimizin gücü. rəşadətli ordumuzun dönməzdiyi həsrətlə yolumuzu gözləyən tarixi torpaqlarımıza yol açdı. İşğaldan azad olan torpaqlarımızda yeni bir həyat başlayıb.

**Zümrüd**

# YAP Suraxanı rayon təşkilatında şəhid anaları ilə görüş keçirilib





*Suraxanı rayon ərazisində yaşayan bir qrup şəhid anaları ilə karantin qaydaları çərçivəsində görüş kecirilib.*

Görüşü giriş sözü ilə açan YAP Suraxanı rayon təşkilatının sədri Vüqar Seyidov bütün şəhid anaları qarşısında baş əydiyini bildirib. Təşkilat sədri qeyd edib ki, bir ədəbiyyat nümunəsində deyildiyi kimi, dünyada var olan bütün məhəbbətləri öz fövqündə daha anlamlı və mənalı edən varlıq "ANA"-dır. Rəngindən, dilindən, dini, milli, siyasi mənsubiyyətindən, fiziki göstəricilərindən asılı olmayaq, yer küresində bütün insanlığa eyni ülvi duyğuları yaşadan ən ali eşqdir "ANA"-dır.V.Seyidov cari görüşün məqsədini açıqlayarkən bildirib ki, rayonumuzda yaşayan şəhid analarını bir araya toplayaraq biz onların ortaq dərdlərini paylaşmaqla yüngülləşdirməyi hədəfləyirik. Ən böyük acıları bölüşməyin, paylaşmağın ən şəfalı dərman olduğuna ümid edirik.

V.Seyidov hər zaman şəhid ailələrinin yanında olduqlarını ifadə edib. Təşkilat olaraq belə görüşlərin davamlı keçirilməsinin faydalı və əhəmiyyətli olduğuna inandığını deyən rayon təşkilat sədri qapılarının şəhid ailələrinin üzünə hər zaman açıq olduğunu vurğulayıb. Daha sonra görüşdə iştirak edən şəhid anaları ilə birgə şəhid Qasımlı Muxtar Əli oğlunun ailəsinə baş çəkilib. İlk olaraq bu şəhid ailəsinin seçilməsinin əsas səbəbi Qasımlı Muxtarın anası Almaz Qasımovanın şəhidimizin dəfnindən sonra ağır psixoloji və mənəvi sarsıntılar keçirməsidir. Ziyarət əsnasında şəhid anaları səmimi söhbət edərək, dərdlərini bölüşüb, bir-birilərinə bu ağır və çətin günlərdən çıxmaq üçün məsləhətlər veriblər. Evdə yaradılmış şəhidimizin guşəsinə baxan şəhid anaları xatirə şəkli çəkdiriblər.

Sonda şəhid anaları bu görüşdən sonra özlərini daha yaxşı hiss etdiklərini ifadə ediblər. Qərara alınmışdır ki, Suraxanı rayonunda yaşayan şəhid analarının görüşlərini müntəzəm həyata keçirsinlər.

**Z. BAYRAMOVA**

### Bu səlahiyyətlər Səhiyyə Nazirliyindən TƏBİB-ə keçir

TƏBİB
Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi

Səhiyyə Nazirliyinə aid olan bir sıra səlahiyyətlər TƏBİB-ə verilir. SİA-nın məlumatına görə, bununla bağlı "Əhalinin sağlamlığının qorunması haqqında" qanuna dəyişiklik təklif edilir.

Dəyişikliyə əsasən, Azərbaycan Respublikasında tibb və əczaçılıq fəaliyyəti ilə məşğul olmaq hüququ olan şəxslərin dövlət reyestri müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan(-qurum)- TƏBİB tərəfindən aparılır və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın(-qurumun) - TƏBİB-in həmin reyestrə çıxışı təmin ediləcək.

# Peyvənd və sağlamlığın təminatında həmrəylik güclənir

## Prezident İlham Əliyev: "Biz pandemiyanın öhdəsindən yalnız birlikdə gələcək və normal həyata qayıdacağıq"

***1948-ci il aprelin 7-də Dünya Səhiyyə Təşkilatının yaranmasından etibarən Ümumdünya Sağlamlıq Günü kimi qeyd edilir. O vaxtdan bəri dünyanın 194 ölkəsi təşkilata üzv qəbul olunub. Azərbaycan da bu təşkilatın üzvləri sırasındadır. ÜST-ün Nizamnaməsində qeyd olunduğu kimi, onun əsas məqsədi bütün insanların mümkün ola biləcək ən yüksək sağlamlıq səviyyəsinə nail olmalarını təmin etməkdir. Sağlamlıq ÜST-ün Nizamnaməsində yalnız xəstəliklərin, yaxud fiziki qüsurların olmamağı ilə deyil, tam fiziki, psixi və sosial sağlamlıq vəziyyəti kimi müəyyən olunur.***



70 ildən artıqdır ki, Ümumdünya Sağlamlıq Günü ənənəvi olaraq qeyd edilir. Həmin gün ictimaiyyətin diqqəti Dünya Səhiyyə Təşkilatının prioritet hesab etdiyi sağlamlığa aid qlobal miqyasda vacib əhəmiyyət kəsb edən bir mövzuya həsr olunur və müxtəlif şüarlar altında keçirilir. Belə ki, "Fəallıq uzun ömür yaşamağa aparan yoldur", "Hamiləlik həyatda xüsusi hadisədir. Onu təhlükəsiz edək", " Sağlamlığı iqlim dəyişikliklərindən qoruyaq", "1000 şəhər - 1000 həyat", "Kiçik sancma böyük təhlükə mənbəyidir", "Qida məhsullarının təhlükəsizliyi", "Diabetə qalib gələk" və s. şüarları altında keçirilən tədbirlər planetin hər bir sakininin sağlamlığın qorunmasına yönəlib. ÜST bu il Ümumdünya Sağlamlıq Gününü "Daha ədalətli və daha sağlam dünyanın qurulması" mövzusuna həsr edib. Bu gün bütün dünya koronavirus pandemiyasının tüğyan etdiyi zamanda təxrəsalınmaz tədbirlər həyata keçirir. Azərbaycanda əhalinin sağlamlığının qorunması Azərdaycan Prezidenti İlham Əliyevin ciddi nəzarəti altında olduğundan ölkəmiz bu pandemiya ilə mübarizədə qabaqcıl ölkələr sırasındadır. Yoluxma hallarının aşkarlanması, xəstəliyin yayılmasının qarşısının alınması və insanların həyatının xilas edilməsi və s. məqsədilə geniş işlər görülüb və bu davamlıdır. Bildiyimiz kimi, Ümumdünya Səhiyyə Təşkilatı "COVID-19"-la bağlı milli və beynəlxalq səviyyədə göstərdiyi ciddi səylərə görə, Azərbaycan hökumətinə dərin minnətdarlığını bildirmişdi. Prezident İlham Əliyev Ümumdünya Səhiyyə Təşkilatının İsveçrənin Cenevrə şəhərində yerləşən mənzil qərargahında təşkilatın Baş direktoru Tedros Adhanom Qebreyesusun təşəbbüsü ilə təqdim olunan videomüraciətində Prezident İlham Əliyev Azərbaycanın pandemiyaya qarşı qlobal səyləri səfərbər edən ilk ölkələrdən biri olduğunu vurğulayıb: "Bizim təşəbbüsümüzlə 2020-ci ilin aprelində Türk Şurasının Zirvə toplantısı, 2020-ci ilin mayında Qoşulmama Hərəkatının Zirvə toplantısı və 2020-ci ilin dekabrında BMT Baş Assambleyasının dövlət və hökumət başçıları səviyyəsində xüsusi sessiyası keçirilib. Azərbaycan öz beynəlxalq məsuliyyətinə sadiq olaraq Ümumdünya Səhiyyə Təşkilatına 10 milyon ABŞ dolları həcmində könüllü maliyyə yardımı ayırıb. Biz, həmçinin 30-dan çox ölkəyə koronavirusla mübarizədə birbaşa humanitar və maliyyə yardımı göstərmişik". Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə keçirilən Zirvə Görüşünün əsas məqsədi milli səviyyədə atılan addımlara dair təcrübə mübadiləsinin aparılması, lazım olan anda bir-birinə dəstək göstərilməsi və xalqlar arasında həmrəyliyin möhkəmləndirilməsi idi. Epidemiyanın geniş yayıldığı dünyada iqtisadi münasibətlərin dayandığı bir dövrə təsadüf edən və Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə keçirilən bu videokonfrans böyük iqtisadi və siyasi əhəmiyyətə malikdir.

### "AZƏRBAYCAN, HƏMÇİNİN COVAX TƏŞƏBBÜSÜNƏ QOŞULAN VƏ ONU DƏSTƏKLƏYƏN İLK ÖLKƏLƏRDƏN BİRİ OLUB"

Dünyada tüğyan edən koronavirus "COVID-19" infeksiyasının ölkəmizdə yarada biləcəyi təhlükənin qarşısının alınması məqsədilə, təxirəsalınmaz tədbirlər davam etdirilir. Təbii ki, bununla bağlı dövlətimiz tərəfindən qabaqlayıcı tədbirlər görülüb, çevik və zəruri qabaqlayıcı addımlar atılmışdır. Bu gün ölkəmizdə əhalinin vaksinasiya işləri uğurla reallaşır. Vaksinasiyaya start verən Avropa İttifaqından bir ay sonra Azərbaycanda bu prosesə başlanılıb. Bu gün peyvəndlərin bərabər və ədalətli şəkildə paylanması məsələsi mühüm əhəmiyyət kəsb edir. Dövlət başçısı bildirib ki, Azərbaycan peyvəndlərin paylanmasında ədalətliliyi dəstəkləyərək BMT-nin İnsan Hüquqları Şurasında "Koronavirus pandemiyası ilə mübarizədə bütün ölkələrin peyvəndlərə bərabər, məqbul qiymətə, vaxtında və universal əlçatanlığının təmin edilməsi" adlı qətnamə layihəsi irəli sürüb. Qətnamə bu il martın 23-də konsensus əsasında qəbul edilib. "Azərbaycan, həmçinin COVAX təşəbbüsünə qoşulan və onu dəstəkləyən ilk ölkələrdən biri olub. Biz və bütün beynəlxalq ictimaiyyət bu təşəbbüsün pandemiya ilə mübarizədə əməkdaşlıq və həmrəylik modeli olmağını gözləyir. Biz pandemiyanın öhdəsindən yalnız birlikdə gələcək və normal həyata qayıdacağıq", - deyə Prezident İlham Əliyev vurğulayıb.

### AZƏRBAYCAN ƏN SƏMƏRƏLİ TƏDBİRLƏR HƏYATA KEÇİRƏN ÖLKƏLƏRDƏNDİR

Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru Tedros Adhanom Qebreyesus şəxsi "Twitter" hesabında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Ümumdünya Sağlamlıq Günü münasibətilə videomüraciətindəki çağırışları ilə bağlı paylaşım edib. ÜST-ün Baş direktoru paylaşımında Azərbaycan Prezidentinə təşəkkür edərək qeyd edib: "BMT-nin İnsan Hüquqları Şurasında ədalətli, əlverişli, vaxtında və universal şəkildə COVID-19 peyvəndlərinə çıxışın əldə olunması ilə bağlı çağırışdakı liderliyinizə görə Prezident Əliyev, Sizə təşəkkür edirəm. Razıyam ki, biz vaksinlərin ədalətli paylanmasını təmin etmək, peyvənd və sağlamlıq təminatı üçün birlikdə daha çox iş görməliyik". Bu gün bütün dünyada olduğu kimi, Azərbaycan da koronavirus pandemiyası ilə mübarizəni davam etdirir. Azərbaycan Cənubi Qafqazda ilk olaraq artıq vaksinasiya işlərinə start vermiş ölkədir. Yanvarın 18-dən başlayaraq Azərbaycanda vaksinasiya başlamışdır. Azərbaycan da milli peyvəndləmə strategiyasına uyğun olaraq, sifariş edilmiş 4 milyon doza "CoronaVac" peyvəndi vasitəsi ilə risk qruplarına aid şəxslərin peyvəndlənməsi aparılır. Artıq ölkəmizə COVAX platforması çərçivəsində "AstraZeneca" şirkətinə məxsus 84 000 doza COVID-19 vaksin dərman vasitəsi gətirilib. Bu, ilk partiyadır. Mayın sonuna qədər "AstraZeneca" şirkətinə məxsus 432 000 doza COVID-19 vaksin dərman vasitəsi Azərbaycana gətiriləcək. Azərbaycan peyvəndləmə səviyyəsi baxımından MDB ölkələri arasında lider mövqelərdədir. Vətəndaşların layiqli həyat şəraitinin və təhlükəsizliyinin təmin edilməsi, hazırkı qlobal problemin təsirindən müdafiəsi Azərbaycan dövləti üçün ən vacib və prioritet məsələdir. ÜST ekspertlərinin də qeyd etdikləri kimi, Azərbaycan hazırkı qlobal təhlükənin ölkə əhalisinə təsirini mümkün qədər minimallaşdırmaq üçün ən səmərəli tədbirləri həyata keçirən ölkələrdən biridir.

***Nəzakət ƏLƏDDİNQIZI***

## Türkiyədən ÖNƏMLİ MESAJ: Əgər Ukrayna savaşa başlasa...



Azərbaycan və Suriyada yaşananlar çətin şəraitdə Türkiyə ilə Rusiyanın birgə hərəkət edə biləcəyini göstərdi. SİA xəbər verir ki, bunu Türkiyə-Rusiya parlamentlərarası dostluq qrupunun rəhbəri, AKP-dən olan deputat Murad Bayburt deyib.

"Türkiyənin Krımın ilhaqını qəbul etməməsinə rəğmən Rusiya ilə əlaqəsi pozulmayıb. Rusiyaya Ukraynanın ərazi bütövlüyünün tərəfdarı olduğumuzu dəfələrlə demişik. Buna rəğmən Ukraynada yaranacaq böyük böhran Türkiyə-Rusiya münasibətlərini zədələməz. Məncə, əlaqələrimiz daha da qüvvətlənəcək", - deyə o bildirib. Onun sözlərinə görə, Türkiyə NATO üzvü olsa da, özünün geosiyasi maraqları var: "Türkiyə NATO üzvüdür, Avropa Birliyinə girmək istəyən ölkədir. Lakin bizim özümüzə aid geosiyasətimiz və geostrategiyamız var. Rusiya ilə masada oturduğumuz zaman Moskva bizə kömək edəcək, biz də Rusiyaya kömək edəcəyik".

***Aysel Məmmədova***

## Kreml: "Qarabağda "İskəndər"in istifadəsi ilə bağlı məlumatımız yoxdur"



Qarabağda qalıqları aşkar edilmiş "İskəndər" raketi barədə hər hansı məlumatımız yoxdur. SİA-ya məlumatına görə, bunu Rusiya prezidenti Vladimir Putinin mətbuat katibi Dmitri Peskov raketin istifadəsi barədə prezidentə məruzə olunub-olunmaması barədə sualı cavablandırarkən deyib.

O, V.Putinin Ermənistanın baş naziri Nikol Paşinyanla görüşü zamanı ikitərəfli münasibətlərin müzakirə olunacağını bildirib:"Rusiya prezidenti Ermənistan baş naziri ilə görüşü zamanı inteqrasiya məsələlərini, eləcə də Qarabağla bağlı üçtərəfli bəyanatların icrasını müzakirə edə bilər. Raketlə bağlı heç nə deyə bilmərəm, bu barədə məlumatım yoxdur".

## Etirazçı erməni qadınlar tutulub polisə aparılıb



Hökumət binası xaricində qadınlar da daxil olmaqla 15 nümayişçi polisə aparılıb. SİA Ermənistana məxsus armenianreport.com saytının məlumatına istinadən xəbər verir ki, bu barədə "Novosti-Armeniya" agentliyinə Polis İdarəsinin İctimaiyyətlə əlaqələr və məlumat şöbəsinin müdir müavini Edqar Janoyan məlumat verib.

Qeyd edək ki, analıq və gözəllik günündə Ermənistan rəhbərliyinə qarşı etiraz aksiyası "VETO" ictimai-siyasi hərəkatının üzvləri olan erməni qadınlar tərəfindən təşkil edilib. Aksiya Aznavour meydanından yürüşlə başlayıb və bundan sonra iştirakçılar şəhərin mərkəzindəki hökumət binasına çatıblar.

Diqqətə çatdıraq ki, hökumət binası qarşısında vəziyyət daha da pisləşib, qadınlar onlara binaya girmə imkanı verməyi polisdən tələb ediblər. Polis isə hökumət binasının qapıları özünüdə mühafizə səddi qurub və aksiya iştirakçılarına mane olub. Bir sözlə, etirazçılar polisin müqaviməti ilə qarşılaşıblar. Belə olan halda etirazçılar hökumət binasına yumurta atmağa başlayıblar. Polis də öz növbəsində etirazçıları qovmaq, tabesizlik göstərənləri də tutub aparmaq qərarına gəlib. Bundan sonra qadınlar hökumət binasından mərkəzi polis idarəsinə doğru hərəkət ediblər və tutulan etirazçılara dəstək olduqlarını bildiriblər.

***İnam Hacıyev***

# Yaponiyanın ölkəmizdəki səfiri Daşkəsən rayonundakı filiz yataqlarında olub



Aprelin 6-da Yaponiyanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Cuniçi Vada Daşkəsən rayonuna səfər edib. Daşkəsən rayon İcra Hakimiyyətinin başçısı Əhəd Abıyev səfir Cuniçi Vada ilə görüşüb. Əhəd Abıyev qonağı salamlayaraq, Yaponiyalı diplomata rayon ərazisində olan zəngin filiz yataqları, həmin yataqların mövcud istismar vəziyyəti, eləcə də, Azərbaycan Respublikasının möhtərəm Prezidenti cənab İlham Əliyevin tapşırıqlarına uyğun olaraq rayonda aparılan geniş abadlıq və yenidənqurma işləri barədə ətraflı məlumat verib.

Səfər çərçivəsində Daşkəsən Rayon İcra Hakimiyyətinin Başçısı Əhəd Abıyev bildirib ki, filiz yataqların istismarı və istehsal prosesi dünya standartlarına uyğun təşkil edilib, bölgənin dayanıqlı sosial inkişafına, eləcə də ölkə iqtisadiyyatına mühüm töhfələr verməkdədir.

Səfir Cuniçi Vadanın diqqətinə çatdırılıb ki, Yaponiya hökuməti tərəfindən hər zaman ölkəmizdə sosial sahələrinin inkişafına yönələn çoxsaylı qrant layihələr icra edilir. Onlardan da 2-i Daşkəsənin payına düşür. Bu qrantlar hesabına rayonun iki yaşayış məntəqəsinə içməli su xəttinin çəkilişinin və bulaqların inşa olunduğu bildirən Əhəd Abıyev bu əməkdaşlığın davam etdirilməsinə ehtiyac olduğu barədə də məlumat verib.

Əhəd Abıyev onu da bildirib ki, 44 gün davam edən Vətən müharibəsi zamanı müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuz uzun illər ərzində aparılmış uğurlu siyasət, gərgin zəhmət, düşünülmüş ordu quruculuğu, ölkəmizin hərtərəfli inkişafı və xalqımızın yüksək vətənpərvərlik ruhu ilə ölkə rəhbərinin ətrafında yumruq kimi birləşməsi nəticəsində işğal altında olan müqəddəs torpaqlarımızı qısa müddətdə azad etmişdir. Bu qələbənin əldə olunması zamanı Daşkəsən rayonu 32 şəhid vermiş, 82 nəfər hərbi qulluqçumuz qazi olmuşdur. Daşkəsən Rayon İcra Hakimiyyəti tərəfindən bütün şəhid ailələri və qazilərin problemlərinə hər zaman həssaslıqla yanaşılır, həlli üçün bütün imkanlardan istifadə olunur.

Yaponiyanın Azərbaycandakı səfiri Cuniçi Vada görüşdən böyük məmnunluq hissi duyduğunu qeyd edib. Səfir müharibə zamanı baş verən hadisələrdən məyus olduğunu dilə gətirərək Azərbaycan xalqını əldə olunmuş qələbə münasibətilə təbrik edib.

Görüşdə Daşkəsən Rayon İcra Hakimiyyətinin Başçısı Əhəd Abıyev tərəfindən Yaponiyanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Cuniçi Vadaya xatirə hədiyyələri təqdim edilib. Sonra Yaponiya səfiri Cuniçi Vada "Daşkəsən" Dəmir Filizi Sahəsinin ərazisinə ümumi baxış keçirib. Yaponiyalı diplomata regionun ən nəhəng dəmir filizi yataqları kompleksində aparılan geoloji kəşfiyyat işləri barədə məlumat verilib.

Daha sonra səfir "Çovdar" Filiz Emalı Sahəsində olub. Burada səfir C.Vadaya mədəndə istehsalat prosesi və yaradılan iş şəraiti ilə tanış olan diplomat istehsalatın bütün mərhələlərini virtual qaydada izləyib. Bunun ardınca səfir mədən ərazisində süxurların partladılması, metal tökümü və xəlitələrin hazırlanması prosesi ilə əyani şəkildə tanış olub. Səfirə qiymətli metalların ixracatı və şirkətin ölkə iqtisadiyyatına verdiyi töhfələr barədə ətraflı məlumat verilib. Daşkəsən rayonuna səfərdən məmnun qalaraq zəngin təəssüratlarla ayrıldığını bildirən C.Vada səfəri zamanı ona göstərilən yüksək diqqətə və yaradılan şəraitə görə minnətdarlığını bildirib. Səfir iki ölkə arasında iqtisadi əməkdaşlığın qiymətləndirilməsi baxımdan səfərin olduqca faydalı olduğunu diqqətə çatdırıb.



***Rəfiqə HÜSEYNOVA***

# Müxalifətin saatı 28 ildir ki, dala qalıb



**RƏFİQƏ**

Bu gün müxalif düşərgəyə nəzər salarkən, belə bir sual yaranır - ənənəvi müxalifət bu dönəmdən sonra nə edəcəyini düşünürmü? Çünki görünən də budur ki, onlar bu 28 ildə ilk ağıllarına gələni söyləyiblər. Ən əsası da AXCP- Müsavat hələ də bu 28 ildə bir addım belə irəli gedə bilməyiblər. Bu zatən belə də olmalı idi. Baxın, bu, o partiyalardır ki, 28 ildir "döyüşürlər", bir-birilərini qurşaqdan aşağı söyürlər...sözün qısası, bir-birilərini baltalamaqla məşğuldurlar. Filan partiya filan partiyanın ideyasını dəstəkləmədi, filan partiya filan partiyanın yanına gedərək, vaxtilə yanında olduğu o biri partiyaya xəyanət etdi, bu partiya "mitinq çağırışımızı" dəstəkləmədi... Xüsusilə də, 44 gün davam edən İkinci Vətən Müharibəsində 50 siyasi partiyaların bir yerdə olaraq dövlətə dəstəy olmasını AXCP-Müsavat "siyasi oyun" adlandırması hələ də onların nə qədər xalqımıza, dövlətimizə satqın olduğunun göstərir. Dövlət tərəfindən təşkil edilən hər hansı bir proseslərdə kənarda qalan və hər iki partiya: "Bizim öz qərarlarımız var" - deyərək kənarda dayanmaqla satqın və erməni "dəyirmanına" su tökən manqurtlardır.

Elə bu günlərdə işğaldan azad edilmiş torpaqlara səfər edən siyasi partiyaların dəstəsinə qoşulmayan yenə də Müsavat-AXCP oldu. İştirak etməmələri cəhənnəmə, hələ bir durub bu səfəri "siyasi oyun" adlandırmaları nə qədər riyakar və erməniyə nökərçilik edən rəzillərdir. Çünki bu satqınlar illər boyu sifarişlə işləyərək öz şəxsi mənafelərini düşünməklə torpaqlarımızı satıblar.

## "Şuşanı biz qaytarmışıq, biz. Siz satmısınız onu, xalq xainləri"

Dövlət başçısı xalqa müraciətində bildirib ki, təsadüfi adamlar hakimiyyətə gəldilər, hakimiyyəti qanunsuz yollarla qəsb etdilər: "Baxın, görün, Azərbaycanı o vaxt kimlər idarə edirdi?! Parlamentin sədri kiçik elmi işçi idi, özü də uğursuz bir elmi işçi idi. Dövlət katibi - komsomoldan çıxmış karyerist, özü də sonrakı mərhələdə öz liderinə xəyanət etmiş, onun kürsüsünə, kreslosuna göz dikmiş, onun ölümünə hamıdan çox sevinmiş və ondan sonrakı həyatını, sadəcə olaraq, xarici dairələrin idarəsi altında keçirən bir adam. Onlardan hansı idarəçilik gözləmək olardı? Onlardan hansı vətənpərvərlik gözləmək olardı? Hansı peşəkarlıq gözləmək olardı? Xarici işlər naziri. Heç bir dildə danışa bilməyən təsadüfi bir adam, fizika müəllimi. Hansı ki, ümumiyyətlə, başa düşmürdü xarici münasibətlər nədir, beynəlxalq norma, prinsiplər nədir? Sadəcə olaraq, turist kimi ora-bura gedirdi və ağzına gələni danışırdı. Müdafiə naziri, riyaziyyat müəllimi. Riyaziyyat müəllimi müdafiə naziri ola bilərmi? Məhz bu riyaziyyat müəllimi Şuşanı düşmənə təhvil verdi. Deyirdi ki, Şuşa əldən gedərsə, başıma güllə vuracağam. Bu günə qədər orada-burada sülənir. Şuşanı biz qaytarmışıq, biz. Siz satmısınız onu, xalq xainləri. Daxili işlər naziri. Quldurluq baş alıb gedirdi, jurnalistlər həbs olunurdu, döyülürdü, canlı efirdə maşınların yük yerinə atılırdı. Bu idi Azərbaycan Xalq Cəbhəsinin rəhbərləri".

Dövlət başçısı Xalq Cəbhəsi hakimiyyətini kollektiv Paşinyan adlandırmışdı: "Xalq Cəbhəsi hakimiyyətini kollektiv Paşinyandır. Onları tanımayanlar, əgər onlar haqqında hər hansı bir təsəvvür yaratmaq istəsələr, Paşinyana baxsınlar. Onun addımlarına baxsınlar və onun simasında o vaxtkı Azərbaycan Xalq Cəbhəsinin və ölkə rəhbərliyinin simasını görəcəklər".

Ancaq Vətən müharibəsində Azərbaycanın qələbəsinə hər imkanları ilə mane olmağa çalışan və tarixin gedişində 28 il geri qalan, düşmənə işləyən Vətən, dövlət, xalq xainləri hüquqi çərçivədə cavablarını və cəzalarını almalıdırlar.

# HƏKİMDƏN AÇIQLAMA: Uşaqlarda ağlama qorxulu xəstəliklərə səbəb olur



Körpələrdə həddindən artıq ağlamaq çox sıx rastlanılan və valideynlər üçün çətin vəziyyətdir. SİA-nın Türkiyə mətbuatına istinadən verdiyi məlumata görə, infantil kolik ilk dəfə 1954-cü ildə "Anksiyete və ağlama sehrləri üç həftədən çox, həftənin ən az üç günü, gündə üç saatı keçərək" təyin olunub. Ümumiyyətlə, uşaq doğulduqdan sonra 2-3-cü həftələrdə başlayır, 6-8-ci həftələrdə artır və 3-4-cü aylarda özlüyündən düzəlir.

Dietoloq mütəxəssis Aslıhan Kiçik Budak mövzu ilə əlaqədar məlumat verib. Onun sözlərinə görə, hər ağlama kolik deyil: "Kolik ağlaması normal ağlamadan fərqləndirilməlidir. Kolik ağlayan körpəni sakitləşdirmək çox çətindir və o, saatlarla, bəzən, hətta 24 saat ağlaya bilər. Ağlama zamanı körpə yumruqlarını sıxır, ayaqlarını mədəsinə çəkir. Üzündə qızartı, ağız ətrafında solğunluq olur. Başında gözləmə körpənin nəcisi və qazı bitənə, ya tamamilə yorulana qədər davam edə bilər".

**Körpə kolikasının səbəbi nədir?**

Psixoloji amillər: Hamiləlik dövründəki stress, fiziki və ailə problemləri, doğuşdakı mənfi təcrübələr, ananın narahatlığı kimi amillər körpədə kolik inkişaf riskini artırır. 2006-cı ildə Türkiyədə aparılan araşdırmada, doğuşdan sonra depressiyanın uşaq kolikasına səbəb ola biləcəyi bildirilib.

Ətraf mühitə qarşı yüksək həssaslıq: Yeni doğulmuş körpədə xarici təsirlərin qarşısını alan bir mexanizm mövcuddur və bu inhibitor mexanizm ilk ayda yox olduqda körpə təsirlərə qarşı daha həssas olur. Körpə gün ərzində səs, işıq, qoxu və siqaret tüstüsü kimi bir çox təsirlə qarşılaşdıqda, axşam saatlarında oyanaraq əsəbi olur və səbəbsiz ağlamağa başlayır. 5-ci ayın sonunda körpə bu stimulların və kolik ucların öhdəsindən gəlməyə başlayır.

Qidalanma: Şüşə qabda üfüqi vəziyyətdə qidalanma və bəsləndikdən sonra qaz çıxarmaq uşaq kolikasına səbəb ola bilər. İlk 6 ayda yalnız ana südü ilə qidalanmaq kolik üçün ən vacib qoruyucu amildir. Mədə-bağırsaq faktorları: Xüsusilə uşaq yeməyi ilə qidalanan körpələrdə görülən qida allergiyası, "laktoza malabsorbsiyası" və "qastroezofagus reflü" kimi amillər də kolikaya səbəb ola bilər.

**Uşaq kolikasının müalicəsi nədir?**

Uşaq kolikası üçün təsdiqlənmiş bir müalicə olmasa da, pəhriz, bitki çayları, farmakoloji müalicə, davranış müalicəsi kimi üsullardan istifadə olunur. Bu metodlar arasında davranış terapiyası ən etibarlı olandır.

***Ayşən Vəli***

# Manukyan, Koçaryan, yoxsa Paşinyan?

### Aleksey Fenenko: “Vazgen Manukyan aqressiv radikaldır, Robert Koçaryanın isə Ermənistanda elektoral dayağı yoxdur”



Məlum olduğu kimi, Ermənistanda iyunun 20-də növbədənkənar parlament seçkilərinin keçirilməsi gözlənilir və hakimiyyətə iddialı olaraq iqtidarı ələ keçirmək istəyənlərin sırasında bir zamanlar ölkəyə rəhbərlik etmiş və hazırda revanşistlər sırasında yer alan qüvvələr də var. Misal üçün, “Vətənin azadlığı naminə hərəkat”ın rəhbəri Vazgen Manukyan, ölkənin ikinci prezidenti Robert Koçaryan və s. Söz yox ki, revanşistlərin bir məqsədləri var - hakimiyyətə gələndən sonra Qarabağ üzrə imzalanmış üçtərəfli bəyanatı etibarsız hesab etmək və Azərbaycanla yeni müharibəyə hazırlaşmaq.

Bu arada Rusiyanın tanınmış politoloqu, beynəlxalq məsələlər üzrə ekspert Aleksey Fenenkonun Azərbaycanda dərc edilən rusdilli caliber informasiya analitik mərkəzinə verdiyi proqnozlarına da diqqət yetirmək olar. O, Vazgen Manukyanın bioqrafiyasını xatırladaraq deyib ki, hələ 1996-cı ildə bu adam Ermənistanda çaxnaşmalar yaradaraq iddialar irəli süürməyə başlamışdı ki, ölkənin o zamankı prezidenti Levon Ter-Petrosyan Qarabağı azərbaycanlılara təhvil verməyə hazırlaşır. 1998-ci ilin fevralında Vazgen Manukyan faktiki şəkildə Levon Ter-Petrosyanı devirməyə müvəffəq olur.

### Robert Koçaryanın problemi ondadır ki, radikallar onun daha loyal olduğunu hesab edir, qərblilər isə rusiyapərəst olduğunu bilir, rusiyapərəst elektorat üçün isə o qərbyönümlüdür

Lakin bu gün revanşist güclərin işində Vazgen Manukyandan heç də geri qalmayan iddialı şəxslərdən biri məhz Robert Koçaryandır. Bu mənada, Koçaryanın iddialı olmasına rəğmən, şansının olub-olmamasına toxunan Aleksey Fenenko bildirib ki, əsasən, siyasət arenasındakı gedişlərdən sonra qayıdışlar çətin baş verir və baş versə belə cüzi hallarda yaşanır. “Bundan əlavə, Robert Koçaryan Vazgen Manukyandan az da olsa loyaldır. Erməni radikalları isə istəyirlər ki, hakimiyyətə aqressiv siyasətçi gəlsin”, deyən rusiyalı politoloqa görə, Robert Koçaryanın problemi ondadır ki, radikallar onun daha loyal olduğunu hesab edir, qərblilər isə rusiyapərəst olduğunu bilirlər. Rusiyapərəst elektorat üçün isə Koçaryan qərbyönümlüdür. Problem də bundadır.

Onun Poznerə müsahibəsi zamanı erməni ordusunun vəziyyətinin acınacaqlı olması və revanşa hazır olmaması barədə dediyi fikrinə də münasibət bildirən Aleksey Fenenkoya görə, bu yanaşma da Vazgen Manukyanın Qarabağı bu gün olmasa da, sabah “geri qaytaraq” çağırışlarından fərqlənir. Ancaq buna rəğmən, Robert Koçaryanın Ermənistanda elektoral dayağı yoxdur.

### Əgər Armen Sarkisyan Nikol Paşinyana qarşı oyunlara başlarsa, erməni baş nazirinin nəticələri heç də uğurlu olmaya da bilər

Politoloq Manukyanın da şansının olmadığını bildirib və boş müharibə çağırışlarının ona heç bir səmərə verməyəcəyini deyib. Lakin Ermənistanın mövcud prezidenti Armen Sarkisyanın da növbədənkənar seçkilərin nəticələrinə təsir imkanlarının olduğunu xatırladıb. SİTAT: “Burada Ermənistanın prezidenti Armen Sarkisyanın hansı mövqe sərgiləməsindən də çox şey asılıdır. Biz bu fiquru unuduruq, o isə siyasi mərhələlərdə vacibdir. Əgər Armen Sarkisyan Nikol Paşinyana qarşı oyunlara başlarsa erməni baş nzirinin nəticələri heç də uğurlu olmaya da bilər.

Vazgen Manukyanın elektoratına gəlincə - bu şəhər küçələrindəki aqressiv marginallardır. Onlar müharibənin nə olduğunu pis başa düşürlər, ancaq məmnunluqla “Müharibə et!” şüarlarını çıxırmağa hazırdırlar. Manukyan da məhz onlara “stavka” edir”.

Rusiyalı politoloq daha bir məqama da toxunub və bildirib ki, bu da erməni siyasətinin xüsusiyyətləri sırasındadır: “Qarabağ klanının tam şəkildə süqutu baş verdi. Daha əvvəl bu klan kifayət qədər gücü ehtiva edirdi, ancaq ötən payızda baş verən olaylardan sonra biz klanın kiçik qruplara parçalanmasını görürük. Qarabağlı ermənilər hansısa konsolidasiyalı namizədi ortaya çıxara bilmirlər, bu isə Paşinyanın xeyrinə oynayan amildir”.

O, sonda bildirib ki, Vazgen Manukyan İrəvan ermənisi olmasına rəğmən Qarabağ klanında olmuş və oradan küskün ayrılmış radikalları da özünə cəlb edə bilər. Ancaq...

### Moskvanın “stavkası” 50-nin 50-yədir...

Ancaq daha bir fakt budur ki, Koçaryana Kremlin “stavka” etməsi mümkünlüyü də görünür. Eksprezidentin Rusiyanın paytaxtında gedərək görüşlər keçirməsi və müsahibə verməsi bir çoxlarında onun “Moskvanın dostu” fikirlərini diktə edir. Lakin fakt budur ki, Robert Koçaryan Moskvada özünün “uzun illərə söykənən dostu” hesab etdiyi Vladimir Putinlə başbaşa görüşə bilmədi və ən yaxşı halda Putin onunla telefonla danışdı. Hətta belə nəticəyə gəlsək ki, Moskvanın “stavkası” 50-nin 50-yədir və əslində onun hakimiyyətə yiyələnməsi ehtimalının da az olduğunu yaxşı dərk edir, hətta müəyyən dəstəklərini göstərərsə belə. Əslində, bu gün açıq şəkildə etiraf olunmasa da, Kreml Qərbin yetirşdirməsi olan Paşinyanı öz tərəfinə çəkməklə, yəni daha böyük vədlər verməklə onun qütb orientasiyasını dəyişməyə çalışır. Bu baxımdan, Ermənistanda keçiriləcək növbədənkənar parlement seçkilərinin və seçkilərin bu, yaxud digər şəkildə nəticələrinin hansı məcrada inkişaf edəcəyini sadəcə gözləmək, daha sonra isə yekun ehtimallara gəlmək lazımdır.

*Rövşən NURƏDDİNOĞLU*

# Erməni ekspert: Ermənistan “pis xəbər” gözləməlidir

***Qazın qiyməti ilə əlaqədar olaraq, Ermənistanın çox güman ki, pis xəbərlər gözləməsi lazımdır. SİA Ermənistana məxsus armenianreport.com saytında yayımlanan məlumata istinadən xəbər verir ki, bunu 7 aprel tarixində jurnalistlərlə görüşdə Daşnaksütyun Bürosunun İqtisadi Tədqiqatlar Ofisinin proqram koordinatoru, iqtisadçı Tadevos Avetisyan söyləyib.***



Ekspert Ermənistanın sərhəddə 1000 kubmetri 165 dollardan qaz aldığı müqavilənin müddətinin bitdiyini xatırladıb. “Yaxşı bir xəbər olsaydı, səlahiyyətlilər bu mövzuda səs-küy salar, özlərini reklam edərdilər”, deyə ekspert vurğulayıb. Avetisyanın izah etdiyi kimi, qaz qiymətlərindəki artım yeni inflyasiya təzyiqlərinə səbəb olacaq.

Xatırladaq ki, 1 yanvar 2019-cu ildən etibarən Gürcüstan və Ermənistan sərhədində Rusiya qazının qiyməti 1000 kubmetr üçün 165 dollar həddindədir. Amma bu hədd daimi olaraq qəbul edilməyib və xüsusi müqavilə ilə müddətlidir. Diqqətə çatdıraq ki, həmin müqavilənin də müddəti artıq bitməkdədir. Elə bu səbəbdən də Ermənistanda həyəcan təbili çalınır. Heç şübhəsiz ki, münasibətləri tamamilə dağılmaqda olan Rusiyanın həmin müqavilənin vaxtı bitdikdən sonra qazın qiymətini qaldıracağı təkzib edilə bilməz. Məhz bu səbəbdən də ekspert, Ermənistan “pis xəbər” gözləməlidir, deyib.

*İnam*

# “Joxovurd” qəzeti yazır: Üsyançı hərbçilərdən necə yaxa qurtarmalı?



***Əsas hədəflərdən biri Silahlı Qüvvələrin Baş Qərargahının keçmiş rəisi Yuri Xaçaturovun oğlu - Qriqori Xaçaturovdur. SİA xəbər verir ki, bu barədə “Joxovurd” qəzeti yazır.***

Qəzet öz mənbələrinə istinadən Ermənistan Silahlı Qüvvələrinin strukturunda dəyişikliklərin, müharibədən sonra ordu sıralarının düzəltmək, sərhədləri möhkəmləndirmək və müqavimət göstərmək üçün həyata keçirilmədiyini yazır.

Diqqətə çatdıraq ki, Artak Davtyan qalmaqallı şəkildə Silahlı Qüvvələrin Baş Qərargah rəisi vəzifəsindən azad edildi və sonra bir qalmaqalla Silahlı Qüvvələrin Baş Qərargah rəisi vəzifəsinə qayıtdı, ayrıca, Nikol Paşinyana qarşı çıxan və istefasını tələb edən hərbçiləri, korpus komandirlərini ayrı-ayrılıqda cəzalandırdı.

Xatırladaq ki, 40 hərbçi Onik Qasparyanın bəyanatını imzalayıb.

“Əlbəttə ki, əsas hədəflərdən biri də Silahlı Qüvvələrin Baş Qərargah rəisi Yuri Xaçaturovun oğlu - həm 44 günlük Artsax müharibəsi zamanı, həm də İyul hadisələri zamanı fəallığı və peşəkarlığı ilə fərqlənən Qriqori Xaçaturovdur. Beləliklə, peşəkar hərbçilərin qiymətləndirməsinə görə Artak Davtyan ordunu alt-üst etməkdə davam edir”, deyə qəzet yazır.

*İ. Hacıyev*

# Yanlışlıqla dünyaya "adam" cildində gələn iblis

## Yaxud Paşinyan sifətli Əli Kərimli əsl erməni simvoludur

***Bu gün heç kəsə sirr deyil ki, Azərbaycanın bir sıra radikal müxalifət partiyaları xalqımızın maraqlarını qorumaq yerinə, bəzi maraqlı Qərb dairələrinin çirkin, ölkəmizin mənafeyinə zidd olan oyunlarında yer almağı daha üstün tuturlar. Bu partiyalar öz "mübarizəsini" yalnız qara piar kampaniyalarının əsasında qurur, yalan rəqəmlər yazmaqla dividend qazanmağa çalışaraq çəkinmədən xalqın adından danışır, özünü şişirtməyə çalışır. Təəssüf ki, beləiləri siyasi mübarizə anlayışını yalnız qeyri-sivil metodların arasında axtarır, əksər hallarda ölkənin qanunlarını pozmağı siyasi mübarizə ilə sinonimləşdirir.***



Hətta bir çox məqamlarda öz keçmişini, indisini, atdığı addımları, etdiyi səhvləri belə unudur, ölkənin, millətin düşmənləri ilə isti münasibətlər quraraq "dostluq sazişləri" bağlayır, ölkənin inkişafının təminatı olan, demokratik cəmiyyətin qurulması uğrunda illər uzunu planlı iş aparan, hüquqi dövlət quruculuğu sahəsində əsaslı islahatlar həyata keçirən Azərbaycan hakimiyyətinə qara yaxmaqdan əl çəkmirlər.

Ən maraqlısı isə öz təbliğatlarını "gördüyü və ya görəcəkləri" işlərlə deyil, hakimiyyətin üstünə böhtan atmaq "planı" üzərində quran isa qəmbərlər, əli kərimlilər, cəmil həsənlilər, gültəkin hacıbəylilər, sevinc osmanqızılar, vidadi iskəndərlilər və bu kimi yanlışlıqla dünyaya "adam" cildində gələn bu iblis xislətli ünsürlər bir anlıq geriyə çevrilib öz ətraflarına diqqət salsalar, nəyin şahidi olacaqlarını yaxşı bilərlər. Amma onlar geriyə çevrilməkdən qorxurlar. Çünki geridə 1992-93-cü illərdə xalqa etdikləri zülm, yaratdıqları vətəndaş müharibəsi, xalqın əmlakını talan etmə faktları və digər günahları onların gözünə görünə bilər. Sözsüz ki, Paşinyan sifətli Əli Kərimli bu arada Ruslan Bəşirlini də yaddan çıxarmayıb. Düşmənlərlə iyrənc danışıq aparan, düşmən pulu ilə həyat qurmağa çalışan R.Bəşirlinin erməni casusları ilə "konyak içib şokolad yeməsindən" və güman ki, pul bölüşdürməsindən də xəbərsiz olmadı bu iblis Əli Kərimli. Çünki sonradan qəzetlərə müsahibə verən Mirzə Sakit və digərləri istər AXCP(i)-yə, istərsə də "Azadlıq" qəzetinə gələn pulların qəpiyinə qədər Ə.Kərimli tərəfindən mənimsənildiyini deyirdilər. O ki qaldı Ə.Kərimlinin ətrafına, elə hamısı özü kimi quldur, oğru, satqın və cinayətkarlardır. Əlbəttə ki, beləiləri Ə.Kərimlinin ətrafında olar.

### Erməniyə "dayı" deyən Paşinyan sifətli Əli Kərimli...

Ən iyrənci isə odur ki, xalqımız, bütün türk dünyası ilə bərabər bir çox dünya dövlətləri bu qələbə sevincimizlə şərik olduqlarını və işğaldan azad olunun torpaqlarımızın bərpasında dəstək verəcəklərini bildirdikləri halda, erməni üfunəti verən erməniyə "dayı" deyən Paşinyan sifətli bu vicdanı olmayan ermənipərəst qüvvələrin çirkli pulları və anti-Azərbaycan qüvvələrin tula payı alan Əli Kərimli kimlərə Azərbaycanın o çörəyi haram olsun! Az qalıb, xalq, qanun qarşısında cəza çəkməyinizə. Çünki Avropanın mərkəzində, eləcə də Amerikada və digər ölkələrdə soydaşlarımız erməni vandalizminə, sərhədboyu ərazilərdə törətdikləri təxribatlara, günahsız hərbçilərin, mülki əhalinin, uşağın, ağsaqqalın, ağbirçəyin qətlə yetirilməsinə etiraz əlaməti olaraq dinc aksiya keçirirlərsə, niyə ermənilərdən betər Vidadi İsgəndərli, Sevinc Osmanqızı, Arif Məmmədov və bu kimi xəyanətkarlar ermənilərə və onların havadarlarına xoş görünmək və gündəlik yeməklərini artırmaq naminə bütün bunlarda Azərbaycan hakimiyyətini günahlandırır, "zavallı" ermənilərin heç bir günahı olmadığını iddia edirlər. Bu xəbis niyyətlərini sosial şəbəkələr vasitəsilə həyata keçirən satqınlara azərbaycanlı demək olarmı?

Bu gün dünya ictimaiyyəti, hətta Ermənistan dövlətinin üzvü olduğu Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı da işğalçı ölkəni müdafiə etmədi və haqqın tərəfində dayanaraq Azərbaycanın haqlı olduğunu bildirdi. Ancaq satqınlar - vidadilər, sevinclər, ariflər... ermənilərin yanında olduqlarını açıq şəkildə bəyan edirlər. Ancaq nə edirlər etsinlər. Xalq onların yerini göstərib: Tarixin zibilxanasıdır!

Xüsusilə də, manqurtlaşmış "vətən", "millət" deyən Ə.Kərimli kimilərin bəzi xarici dairələrin "zombi"ləşmiş "filial"ı kimi fəaliyyət göstərməsi zaman-zaman faktlarla öz təsdiqini tapmışdır. Ancaq tarix unudulmur, geri qaytarmaq, nə də onu silmək mümkün deyil. Çünki Azərbaycanda xaos yaratmağa çalışan dağıdıcı müxalifət partiyalarının "lider"ləri öz antimilli əməllərini gizlətməyə çalışsalar da, inkaredilməz faktlar başqa söz deyir. Və bu gün Paşinyan sifətli əli kərimlilər, əli əliyevlər, cəmillər, sevinclər, qənimətlər, gültəkinlər... kimi ünsürlər xalq tərəfində tarixin zibil yeşiyinə atılanları tarix və zamanın tələbi ilə xalqımızın və dövlətimizin mənafeyi, müqəddəs amallarımız, müqəddəs qanunlarımız qarşısında cavab verməli olanlarıdır.

**Rəfiqə HÜSEYNOVA**

# Anar Xəlilov: "Müxalifət xarici qüvvələrlə iş birliyini biznes vasitəsinə çevirib"

***"Azərbaycanda fəaliyyət göstərən radikal muxalifətin əsas fəaliyyət istiqamətlərindən biri də beynəlxalq qurumlara, xüsusən də anti-Azərbaycan mövqeli beynəlxalq təşkilatlara ölkəmizlə bağlı həqiqətə söykənməyən donoslar ötürməkdən ibarətdir". Bunu "Səs" qəzetinə açıqlamasında Prezident Yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının üzvü, Sağlam İnkişaf və Maariflənmə İctimai Birliyinin sədri Anar Xəlilov deyib.***



Onun sözlərinə görə, müxalifət bu kimi fəaliyyətləri ilə qaranlıq dairələrdən maliyyə yardımı alır və mövcudluqlarını qoruyurlar: "Eyni zamanda, müxalifət xarici qüvvələrlə iş birliyini biznes vasitəsinə çevirib. Sivil siyasi mübarizə meydanında normal müxalifətin müraciəti xalqa olmalıdır. Bunlar isə xalqa müraciət edə bilmirlər. Çünki xalq bunları artıq dinləmir. Xalq bu tip insanların və onların yaratdıqları qurumların hansı çirkin oyunlar oynadığının dəfələrlə şahidi olub. Buna görə də xalqdan dayaqların itirdiklərinə görə, yeganə üz tutacaqları yer elə özləri kimi demokratiya şüarı altında siyasi möhtəkarlıqla məşğul olan beynəlxalq təşkilatlara üz tuturlar. Həmin beynəlxalq təşkilatların bir çoxu elə dünyada siyasi reketliklə məşğuldurlar və ya hansısa qaranlıq qüvvələrə xidmət edirlər. Bunlardan aldıqları donoslardan Azərbaycana qarşı şantaj üsullardan istifadə edirlər. Lakin, biz dəfələrlə şahidi olmuşuq ki, bu tip beynəlxalq təşkilatların qərəzli yanaşmalarının sonu həmişə uğursuzluqla yekunlaşıb".

A.Xəlilov bildirdi ki, ölkəmiz bu gün dünyada öz layiqli yerini tutub və inamla inkişaf edir: "Azərbaycanın güclü siyasi lideri var və xalqını, dövlətini inamla irəli aparır. Cənab İlham Əliyevin apardığı daxili və xarici siyasət öz uğurlu nəticələrini hər gün göstərməkdədir. Dünyanın ciddi qərəzsiz siyasi dairləri Azərbaycanda gedən inkişaf prosesini təqdirəlayiq hesab edir. Azərbaycanda gedən inkişaf modeli artıq dünyanın ən nüfuzlu KİV-lərində işıqlandırılır. Radikal müxalifətin xalqın içərisində itmiş hörməti tezliklə donos verdikləri Beynəlxalq təşkilatlarda da təkrarlanacaq. Onlar da bunlardan üz çevirəcəklər. Bütün hallarda istənilən mübarizəni normal qaydalara uyğun aparmaq lazımdır. Bu insanlar unutmamalıdır ki, biz azərbaycanlıyıq, bizim dəyərlərimiz var, şər-böhtanla mübarizə olmur. Eləcə də bu şər böhtanı xalqımızı sevməyən xarici qüvvələrə ötürmək, onların dəyirmanına su tökməkdir. Bu əməl heç bir azərbaycanlıya şərəf gətirməz".

**Gülyana**



İLHAM

## Kimdir bu mütrüblər?

***Hərdən fikirləşirəm ki, doğrudan-doğruya dünya düzəlməyə başlayır. Pandemiya deyilən bu zəhrimar olmasa, düzəlməsi məsələsini tam əminliklə söyləyib, sağa-sola şəstlə boylanıb, qürur da duyaram. Amma koronavirus bəlasının azalması əvəzində sürətlə artması qətiyyətimi bir balaca şübhə altına almış olur. Ümidlər var ki, pandemiya yaxın vaxtlarda aradan qalxacaq və yenidən normal həyat bərpa olunacaq. Yenə də kütləvi şəkildə turist qiyafəsində xarici ölkələrə istirahətə gedəcəyik. Əcnəbilər də ölkəmizə təşrif buyurub, meşələrdə, dağ yamaclarında adları Qızıl kitaba daxil edilmiş quşları ovlayıb, utanıb çəkinmədən də həmin quşlarla selfi çəkdirib, sosial şəbəkələrdə paylaşacaqlar. Bu özbaşınalığa müvafiq dövlət qurumları da susqunluq nümayiş etdirəcəklər. Etiraf edək ki, bizimkilər də az aşın duzu deyillər. Azərbaycan sərhədlərini keçib, bahalı istirahət mərkəzlərinə üz tutanlar min hoqqadan çıxırlar.***

Ölkəmizdə elə gənclər var ki, siqaret almağa bir manat tapa bilmədiyi halda, xaricə üz tutan varlı-karlı ailələrin gülməşəkər övladları milyonlar xərcləyirlər. Yarıçılpaq rəqqasələrin, keçəlbaş mütrüblərin əhatəsində rəqs edən gülməşəkər oğlan və qızlar müxtəlif utancverici hoqqalardan çıxmaqdan da çəkinmirlər. Bəzən iddia edirlər ki, onları pul xərcləməyə üzləri min sifət görmüş mütrüblər yoldan çıxarırlar. Ancaq deyən lazımdır ki, mütrüblərin işləri-peşələri onu-bunu əyləndirib, mahnı oxuya-oxuya onların könlünü açmaqdır. Söz yox ki, bu əyləndirmə məclisində ciblərə topsuz-tüfəngsiz daxil olub, pul-paranı əldə etmək məqsədləri də var. Yazılı mənbələrə istinadən demək olar ki, mütrüblər qədim peşə sahibləridirlər. Yəni yeni minilliyin əvvəlindən mütrüblər lüt, əksər hallarda yarıçılpaq halda rəqs edə-edə oxuyublar. Elə diribaşları da olub ki, rəqs etmək, oxumaqla yanaşı, həm də müxtəlif alətlərdə ifa da ediblər. Bu baxımdan, onların adları üstlərindədir- mütrüblər.

Hazırkı müasir dövrdə bir çox adət və ənənələr, eləcə də dəyərlər dəyişdiyi kimi, mütrüblərin də görkəmi və forması dəyişib. Bir qədər müasirləşiblər, biri oxumağa bacarırsa, digəri rəqs etməkdə pərgardır. Yəni, qədim əcdadları kimi çoxşaxəli bilgilərə malik deyillər. Amma qaz vurub, qazan doldurmaq məsələsində əcdadları olan peşə sahiblərindən fəaldırlar. Bu gün elə mütrüb var ki, bir neçə yerdə evi-villası, müxtəlif markalı xarici avtomobili var. Çox vaxtı səs-soraqları dünyanın ən bahalı istirahət mərkəzlərindən gəlir. Açığı xəritədə belə Maldiv adalarının hansı coğrafi ərazidə yerləşdiyini tapa bimərəm. Və ya Havay adalarının hansı istiqamətdə olduğunu müəyyənləşdirməkdə çətinlik çəkirəm. Amma sosial şəbəkələrə nəzər yetirəndə ölkəmizin adlı-sanlı xanım mütrüblərinin həmin adalardan fotolar paylaşdıqlarını görürəm. Nə deyim ki? Pulu var, kef edir. Maddi imkan sahibidi, özü üçün yaşayır. Sovet hökuməti deyil ki, aldığın mebelə, divan-kresloya görə belə izahat verməli idin. Əks halda, cəza qaçılmaz olardı. İndi isə elə bir dövrdür ki, milyonları və yaxud milyardları necə və hansı formada əldə etdiyinin sorğu-sualını edən yoxdur. Sadəcə deyirlər ki, "bacarana baş, bacamayana daş qurbandır". İndi bir mütrübün naz-qəmzəli baxışına xarici avtomobil bağışlayırlar, ev peşkəş edirlər. Özəl şirkətini mütrüblərə xərclədiyi pullar səbəbindən böyrü üstündə qoyanlar da olur.

O gün saytlardan birindən oxuyuram ki, iki şərikdən biri şirkətin pullarını mütrüb "dost"una o qədər xərcləyib ki, axırda istehsalat müəssisəsi olan şirkət "bankrot" olub, 100-ə yaxın işçi də qalıb havada. Yəni, qardaş o boyda şirkəti mütrübün bir telinə qurban edib. Əhsən, "malades" və sair, ilaxır. O gün dostlardan biri restorana gedibmiş, görür ki, ortalıqda musiqi sədaları altında qu quşu kimi gözəl bir qız süzür. Yarıçılpaq qızın nazlı baxışlarına tab gətirməyən dostumuz cibindən iki dənə 20-lik çıxarıb, qoyub ətrafında fırlanan qızın məlum yerinə. Vəssalam, bundan sonra qız çıxıb gedib, başqa müştərini ovlamağa. Dostumuzu iki 20 manatıq iki həftə yandırıb. Düz iki həftə başı ağrıyıb, dişləri sızıldayıb. Deyir ki, pulu boş yerə havaya sovurduğuna çox peşman olub. Özünə də söz verib ki, bir daha həmin restorana getməsin. Bu yerdə deyiblər, "niyə qədərindən artıq motal yağı yeyirsən ki, sonra da qarın ağrısına tutulursan".

***9 aprel tarixində Azərbaycanda "Xatirə bağı" beynəlxalq aksiyası başlayır. Genişmiqyaslı ağac əkmə aksiyası Böyük Vətən müharibəsi zamanı həlak olanların xatirəsinə həsr edilmişdir. Bu müharibədə SSRİ 27 milyon vətəndaşını itirdi. Azərbaycan faşizm üzərində qələbəyə böyük töhfə verdi - 681 min nəfər cəbhəyə getdi, yarısı döyüş meydanlarında öldü. Azərbaycanın 128 yerli sakini göstərdikləri döyüşə görə Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdür. Azərbaycandakı Ölməz Alayın koordinatoru Viktoriya Kabanadze qarşıdakı aksiya və Qələbə Günü ilə əlaqədar digər tədbirlər haqqında fikirlərini Moskva-Bakı platformasına verdiyi müsahibədə bölüşüb. Müsahibəni oxucularımıza təqdim edirik.***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "İctimai və dövlət maraqlarının müdafiəsi" istiqaməti çərçivəsində hazırlanıb.*







**- "Xatirə bağı" aksiyasının məqsədi nədir?**

- "Xatirə bağı" beynəlxalq aksiyasının məqsədi dünyada 27 milyon ağac əkməkdir. Bu təsadüfi bir rəqəm deyil. Böyük Vətən Müharibəsi və II Dünya Müharibəsi dövründə dinc gələcəyimiz üçün canlarını verən 27 milyon insan olub. Bu xatirəni qorumaq və gələcək nəsillərə çatdırmaq bizim borcumuzdur.

"Xatirə bağı" kampaniyası 2020-ci ildə başladıldı. Keçən il Rusiya Federasiyasının 85 regionunda və dünyanın 50-dən çox ölkəsində təşkil edildi. Çətin epidemioloji vəziyyətə baxmayaraq, bu aksiyalarda 300 mindən çox insan iştirak etdi. Təəssüf ki, Azərbaycanda sərt karantin rejimi səbəbindən aksiya keçən il baş tutmadı. Buna görə də bu dəfə onunla birləşdiyimiz üçün çox xoşbəxtik. Azərbaycandakı "Xatirə bağı" aksiyasının təşkilatçıları Azərbaycanda Qələbənin 75-ci ildönümünün Beynəlxalq Könüllülər Komandası və Azərbaycandakı Kazaklar Cəmiyyətidir. Fəxri qonaqlar: Rusiyanın Azərbaycandakı səfirliyi, Azərbaycandakı "Rossotrudniçestvo" ofisi, Azərbaycan Prezidenti yanında Azərbaycan Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatı, Bakı Şəhər İcra Hakimiyyəti, habelə Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyidir.

**- Aksiyanın keçirilmə yerlərini deyə bilərsinizmi? Bu kampaniyaya necə qoşulmaq olar?**

- İlk askiya 9 aprel saat 11: 00-da, Xəzər Universitetinin yaxınlığında, Bakının Nizami rayonunda keçiriləcək. Pandemiya səbəbindən bu kütləvi bir hərəkət olmayacaq, çünki karantin rejiminə uyğun olaraq həyata keçirilməlidir. İlk 150 ağacın Bakıda əkilməsi planlaşdırılır. Daha sonra "Xatirə bağı" Azərbaycanın digər şəhərlərində - Xaçmaz, Sumqayıt, Gəncə, Balakən və Lənkəranda keçiriləcəkdir.

**- "Ölməz Alay"ın keçən il keçirilən onlayn aksiyası nəyi xatırlatdı?**

- 2020-ci ildə Böyük Vətən müharibəsində Qələbənin 75-ci ildönümünü qeyd etdik. Planlar çox böyük idi, ancaq pandemiya səbəbindən demək olar ki, bütün tədbirlər ləğv edilməli oldu. Onların əksəriyyəti onlayn baş verdi. Məsələn, "Qələbə nəğməsi" müsabiqəsi, Azərbaycandan olan nümayəndələrin də qatıldığı Böyük Vətən müharibəsinə həsr olunmuş rəsm sərgisi. Sevindirici haldır ki, ölkəmiz bu beynəlxalq platformada layiqincə təmsil olundu.

Ayrı-ayrılıqda "Ölməz Alay" ın saytında böyük maraq doğuran Azərbaycan vətəndaşlarının fəaliyyətindən danışmaq istərdim. 600 mindən çox respublika vətəndaşının- azərbaycanlılar, ruslar, yəhudilər, ləzgilər, tatarlar və başqalarının iştirak etdiyi Böyük Vətən müharibəsinə Azərbaycan xüsusi münasibət göstərir. Bildiyiniz kimi, faşizm üzərində qazandığımız qələbədə Azərbaycanın bütün müharibə boyu döyüş sahələrində vuruşan texnika üçün təmin etdiyi yanacağın da böyük payı var.

Cəbhəçi əsgərlərin fotoşəkilləri ilə yüzlərlə maraqlı hekayə, "Ölməz Alay"ın saytında qohumları tərəfindən yerləşdirildi. 9 Mayda Moskvada canlı yayımlar zamanı böyük monitorlarda nümayiş olunan cəbhəçi əsgərlərin foto və hekayələrini yerləşdirməyə də kömək etdik. Sevindirici haldır ki, Qarabağ müharibəsi veteranları olan "Ölməz Alay" üzvlərimiz çoxdur. Onlar Böyük Vətən müharibəsi iştirakçılarının - atalarının və babalarının timsalında Azərbaycanın bayrağını qürurla daşıyırlar.

**- Bu il 9 may Qələbə Günü ərəfəsində daha hansı tədbirlərin keçirilməsi gözlənilir?**

- Georgi lentinin paylanması üçün illik kampaniyamızı keçirəcəyik. Bakıda hərbi məzarlarda 9 may ərəfəsində "subbotniklər" keçiriləcək. Təəssüf ki, "Ölümsüz Alay" hərəkatının yürüşü alınmayacaq. Ancaq karantin rejimi 9 May tarixinə qədər sərtləşdirilmirsə, kiçik qruplar halında istəyənlər Böyük Vətən müharibəsində həlak olanların xatirəsinə həsr olunmuş abidələrin hər hansı birinə yaxınlaşıb çiçək qoymağı reallaşdıracaqlar. Əminəm ki, II Dünya Müharibəsi veteranlarının portretləri abidələrdə mütləq görünəcəkdir.

Eyni zamanda "Ölümsüz Alay"a qatılmaq üçün onlayn rejim açıqdır. Hər kəs www.mypolk.ru və ya www.polkrf.ru saytında öz hekayələrini, Böyük Vətən Müharibəsi iştirakçısının xatirələrini dərc edə, döyüş yolu haqqında məlumat verə, fotoşəkillərini yerləşdirə bilər. Bütün bunlar yazılanların bir ailənin hüdudlarından kənara çıxması üçün edilməlidir. Milli salnamələrdə iz buraxmaq lazımdır.

***Tərcümə: Elçin Bayramlı***

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

# SƏS

Son səhifə

8 aprel

# DİQQƏT: Emosional zorakılıq da fiziki zorakılıq qədər zərərlidir!

***Şiddət yalnız fiziki deyil, həm də emosional olaraq tətbiq oluna bilər. İki qrupa bölünsə də, şiddət şiddətdir və ona müdaxilə edilməlidir. SİA-nın Türkiyə mətbuatına istinadən verdiyi məlumata görə, həkim Nevzat Tarhan, qadınların ən böyük problemlərindən biri olan "duyğusal şiddət" haqqında vacib məlumatlar verib.***



Həkimin sözlərinə görə, şiddət sadəcə fiziki səciyyə daşımır: "Səs qaldırmaq, qınamaq və qışqırmaqla ortaya çıxan şiddət xaricində, kişi və ya qadının bir-birinə sevgi göstərməməsi qarşı tərəfə emosional olaraq təsir edir. Emosional zorakılığa məruz qalan insan özünü dəyərsiz hiss edir".

### Duygusal zorakılıq sizi dəyərsiz hiss edirir

Tarhan onu da qeyd edib ki, şiddətin bir növü də emosional olur: "Şiddət dedikdə, ağıla mütləq qadına əl qaldırmaq və boşqabları göydə uçurmaq gəlməməlidir. Emosional şiddət forması, tənqidlərin çox olduğu evliliklərdə baş verir və qarşı tərəfdə günahkarlıq hissi yaradır.

### Dəyərsizlik hissi yaratmaq psixoloji şiddətdir

Şiddət tətbiq edən bir insanın xüsusiyyətlərindən biri də qarşı tərəfi tez-tez tənqid etməsidir. Bu həm də emosional şiddətin bir növüdür. Tənqid edən insan "Mən tənqid edə biləcək səviyyədə üstün və vacib biriyəm!" hissi yaradır. Bu nöqtədə şəxsiyyət qarşıdurması başlayır

### Qısqanclıq həm də emosional şiddətdir

Qısqanclıq eyni zamanda duyğusal şiddətin bir növüdür. İnsan sahib olduğu və paylaşmaq istəmədiyi birini qısqanaraq ona zülm edir. Həddindən artıq nəzarət insanı üzür. Bu davranış daha çox "Puritan" əxlaqi xüsusiyyətlərə sahib insanlarda özünü göstərir. Bu cür insanlar hər şeyə qarışırlar, demək olar ki, qarşısındakının ruhunu da idarə etmək istəyirlər. Hər iki tərəfin də bir az özəl həyatının olması təbiidir. "Hər şeydən xəbərdar olmalıyam!" düşüncəsi insanları emosional zorakılığa aparır .

### Laqeydlik də şiddətin bir növüdür

Tarhan son olaraq onu da deyib ki, şiddət olaraq təyin olunan başqa bir xüsusiyyət də səhlənkarlıqdır: "Emosional laqeydlik hisslərə dəyər verməməkdir. Sosial və maliyyə baxımsızlığı da bura daxildir. Məsələn, bir insanın evinin maddi ehtiyaclarını ödəməməsi və dolanışığını düşünməməsi səhlənkarlıqdır. Pul qadının özünü güclü hiss etməsinə səbəb olur. Bu, evliliyi güc mübarizəsinə çevirənlər üçün çox vacibdir. Evlilik sevgi ilə başlayır və bir müddət sonra güc mübarizəsinə çevrilir. Bu mübarizə zamanı hər iki tərəf də şəxsiyyətlərini qorumağa çalışır. Lakin, bu münaqişə şiddətə də səbəb ola bilər. Həyat yoldaşları ağıllı olduqları təqdirdə bir müddət sonra ortaq nöqtədə görüşə bilərlər. Bu mərhələdən sonra evlilik bağları inkişaf etməyə başlayacaq".

Emosional zorakılığa meyilli insanların ümumi xüsusiyyətləri hansılardır?

Zəfərlərindən qürur duyur

Partnyor və ya münasibət üçün vaxt ayırmır

Hörmətsiz davranır

Baş rolda olmaq istəyir

Başqalarının hissləri onun üçün heç bir əhəmiyyət daşımır

İdarəedici və sahiblənicidir

Nadir hallarda hərəkətlərinə və reaksiyalarına görə məsuliyyət daşıyır

Zarafat, kinayə və istehzadan istifadə edir

Özündən razı olur və yalan danışır

Münaqişənin qarşısını alır.

***Ayşən Vəli***

# Arda Turan yenidən məhkəmə qarşısında



Müğənni Berkay Şahinin həyat yoldaşı Özləm Şahinə sataşmaqda günahlandırılan "Qalatasaray"ın futbolçusu Arda Turan haqqında yenidən məhkəmə prosesi başlanılıb. Qol.az xəbər verir ki, 2018-ci ildə Berkay Şahinlə Arda arasında gecə klublarından birində qarşıdurma baş verib və bundan sonra müğənni futbolçunu polisə şikayət edib.

O, Özləm Şahinə sataşmaqda günahlandırılıb. İstanbul 41-ci Asliye Cəza Məhkəməsinin qərarı ilə Arda Turan Özləm Şahinə "cinsi təcavüz" maddəsi ilə təqsirkar bilinib. Həmçinin oyunçu "qorxu və panika yaradacaq şəkildə silahla atəş açmaq", "qanunsuz silah gəzdirmə", "qəsdən adam yaralama" maddələri ilə günahlandırılaraq, haqqında 2 il 8 ay 15 gün müddətində azadlıqdan məhrum edilmə qərarı verilib.

# Ana südü koronavirusdan qoruyurmu?



***Ana südü körpəni koronavirusdan qoruyur. SİA-nın Türkiyə mətbuatına istinadən verdiyi məlumata görə, həkim Emin Dəmirpolat koronavirus testinin nəticəsi pozitiv olan anaların gigiyena qaydalarına diqqət edərək körpəni doyura biləcəyini söyləyir.***

Virusla mübarizə aparan günlərdə ən böyük narahatlıqlardan biri süd verən ananın körpəsinə xəstəlik yoluxdurması təhlükəsidir. Uşaq sağlamlığı və xəstəlikləri üzrə həkim olan Emin Dəmirpolat məsələyə aydınlıq gətirib.

Onun sözlərinə görə, gigiyena qaydalarına diqqət edərək ana südü ilə qidalanmanın zərəri yoxdur: "Hal-hazırda Covid-19 ən aktual mövzulardan biridir. Covid-19 analarda daha çox rast gəlinir. Covid-19 olan ana körpəsinə ana südü verə bilər. Lakin, maska, məsafə və digər qoruyucu tədbirlərə də əməl etmək lazımdır. Ana südü verən valideyn uşağını yoluxdurmamaq üçün maska taxmalı, əllərini tez-tez yumalıdır. Bütün hallarda gigiyenaya riayət etmək lazımdır. Çünki, Covid-19-dan başqa mikroblar da körpəni narahat edə bilir.

Həkim onu da qeyd edib ki, əgər anada Covid-19 varsa, südə də mikrob keçir: "Mikrob süddən körpəyə keçərsə, körpə də xəstələnəcəkdir. Heç vaxt belə bir şey yoxdur. Ana südü körpəni qoruyur, bunu heç vaxt unutmayın. Ana gigiyena qaydalarına riayət edərək, körpəsinə süd verə bilər".

# Türkiyə millisi FİFA reytinqində irəlilədi



Futbol üzrə Türkiyə milli komandası FİFA-nın dünən açıqlanan mart ayı üçün reytinqində irəliləyib. Belə ki, DÇ-2022-nin seçmə mərhələsində ötən ay keçirdiyi 3 oyunda 7 xal toplayaraq qrupunun liderliyini ələ alan "ay-ulduzlular" 29-cu pilləyə qalxıb. Qeyd edək ki, ötən ay türklər reytinqdə 32-ci pillədə idi.

**Baş redaktor:**
Bəhruz Quliyev
**Baş redaktorun müavinləri:**
Valeh Məhərrəmli
Fətulla Həsənov

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc və SİA agentliklərinin məlumatlarından istifadə olunur.*

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 4600